www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 fevral 2017-ci il Çərşənbə № 40 (6654) Qiymət 60 qəpik

**Xəbər**

## Həyat yoldaşını öldürən qadına bəraət verildi

yazısı səh.10-da

**Gündəm**

### Həmsədrlər üçün "referendum" testi - çıxa bildilərmi?



"İşğal altındakı Dağlıq Qarabağda qanunsuz səsvermə problemin üçüncü on ildir niyə çözülmədiyinə yeni işıq saldı; nüvə müttəfiqimiz Pakistandan işğalçıya sərt cavab gəldi...

yazısı səh.11-də

*İlham Rəhimov:*

### "Humanistləşdirmə cəzasızlıq mühitinin yaradılması demək deyil"

yazısı səh.7-də

### Daha bir qapalı "MTN işi" başladı

yazısı səh.10-da

### Əfvə beynəlxalq təşkilatlar, yoxsa azərbaycanlı mühacirlər mane ola bilər?

yazısı səh.3-də

### İranda vəziyyət qarışır: "İran baharı", yoxsa...

yazısı səh.8-də

### Yazarların "da", "də"li dartışması...

yazısı səh.4-də

### İŞİD-in gizli gücü - terror təşkilatını ayaqda saxlayan əsas səbəb

yazısı səh.12-də

### Rəsmi Bakı Qarabağa "referendum" izləməyə gələnləri araşdırır

yazısı səh.5-də

### Novruzda bizi nevroz edən ənənələr- papaq atdı, Kosa, Keçəl...

yazısı səh.15-də

### Ölkədə qaz probleminin səbəbi nədir?

yazısı səh.14-də

### İlhamə Quliyevanın il mərasimi qalmaqallı- iki məclis olacaq

yazısı səh.2-də

## Dövlət başçısı çoxdan gözlənilən sərəncamı imzaladı

# 1-Cİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA VƏZİFƏSİNƏ BAŞLADI: "BACARACAĞAM..."

Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi və Mehriban Əliyeva rəsmən iqtidar komandasının ikinci şəxsi oldu; "Mən bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm", deyən 1-ci vitse-prezident hansı səlahiyyətlərə malik olacaq?




yazısı səh.9-da

## "Rabitə işi" məhkəməsində sensasion gəlişmə-"Aztelekom"un sabiq rəisi azadlığa çıxır

Hakim partiyada NTK sədri olmuş Məhəmməd Məmmədovun dövlətə vurduğu zərəri ödədiyi deyilir; o, istintaqda kimin adını çəkmişdi?

yazısı səh.10-da



*Zeynal Məmmədli:*

### "Medianın 4-cü hakimiyyət olması üçün ilk üç hakimiyyət müstəqil olmalıdır"

yazısı səh.13-də



Şahin Mirzəyev

### Ermənistana sığınan xain haqqında yeni ilginc açıqlamalar

yazısı səh.6-da



### Əli İnsanovun martda azadlığa çıxacağı iddiaları artır

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 40 (6654) 22 fevral 2017



# İsrail qəzeti: "Tramp Azərbaycanla bağlı 907-ci düzəlişi dondurmalıdır"

**Azərbaycanın əhəmiyyəti Rusiya və İranla həmsərhəd olan, eləcə də iri neft və qaz istehsalçısı bir ölkənin strateji və coğrafi mövqeyinə əsaslanır. "Trend" xəbər verir ki, bu sözlər "Dağlarda ölüm. Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi" kitabının müəllifi Raul Louri Kontrerasın İsrailin nüfuzlu "Jerusalem Post" nəşrindəki məqaləsində yer alıb.**

Müəllif Azərbaycanın mürəkkəb regionda ABŞ-ın aparıcı tərəfdaşı olduğunu qeyd edib.

Məqalədə ABŞ Konqresinin Azərbaycana qarşı tətbiq etdiyi iqtisadi yardımın dayandırılması barədə 907-ci düzəlişin ləğv olunmasının vacibliyi qeyd olunub.

Müəllif yazır ki, bundan əvvəl ABŞ prezidentləri Corc Buş və Barak Obama Konqresin onlara verdiyi bu düzəlişin fəaliyyətini dondurmaq səlahiyyətindən istifadə ediblər.

**R.L.Kontrerasın fikrincə, yeni prezident Donald Tramp da bu səlahiyyətdən istifadə etməlidir:** "Respublikaçılar üçün daha doğru qərar bu düzəlişi tamamilə ləğv etmək olardı. Bu yolla Azərbaycanın özünümüdafiəsi üçün daha çox yardım təmin etmək olar. İndi Azərbaycan nağd vəsait ödəməklə Rusiyadan silah alır".

# Azərbaycan Gürcüstana elektrik enerjisi satışından gəlirini 41 dəfə artırıb



**Cari ilin yanvar ayı ərzində Gürcüstan Azərbaycandan 8 mln. 444,5 min dollar dəyərində elektrik enerjisi idxal edib. "APA-Economics" xəbər verir ki, bu barədə Gürcüstan Statistika Xidmətinin açıqladığı statistikada qeyd edilib.**

Rəqəmlərin təhlili göstərir ki, 2016-cı ilin yanvar ayı ilə müqayisədə ötən ay Azərbaycan Gürcüstana 8 mln. 240,5 min dollar və 41,39 dəfə çox elektrik enerjisi ixrac edib. Belə ki, ötən ilin yanvar ayında qonşu ölkə Azərbaycandan 204 min dollar dəyərində elektrik enerjisi alıb.

# Qar kəsib, duman gəlib

**Bakı və Abşeron yarımadasında fevralın 22-də hava dəyişkən buludlu, əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Cənub-qərb küləyi gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA -ya verilən məlumata görə, havanın temperaturunun gecə 1-4° isti, gündüz 8-12° isti, Bakıda gecə 1-3° isti, gündüz 10-12° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 767 mm civə sütunundan 761 mm civə sütununa enəcək.

Nisbi rütubət gecə 75-85 %, gündüz 55-65 % təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza əsasən, fevralın 22-23-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim təsirli hava şəraitinin... reddüdü meteohəssas insanlar üçün nisbətən əlverişlidir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# Ayaz Mütəllibov: "Bu, əla qərardır..."



**Birinci xanım Mehriban Əliyevanın Azərbaycanın birinci vitse-prezident təyin olunması əla qərardır. O, həmin vəzifəyə ən münasib namizəd idi.**

Bu sözləri virtualaz.org-a açıqlamasında Azərbaycanın eks-prezidenti Ayaz Mütəllibov deyib.

Keçmiş prezident Mehriban Əliyevanın işgüzar keyfiyyətlərini çox yüksək qiymətləndirib, onun Azərbaycan mədəniyyətinin xaricdə təbliği üçün gördüyü işləri, həyata keçirdiyi və dünyada hörmət qazanan layihələri barədə xatırladıb.

"Bu, dövlətin imici üçün çox mürəkkəb və faydalı işdir. Mən uzun müddət ölkədən kənarda yaşayan adam kimi həyata keçirilən dəyişiklikləri izləmişəm, birinci xanımın nə dərəcədə genişmiqyaslı işlər gördüyünü başa düşürəm. Onun həmin dövlət postuna təyinatını ancaq alqışlamaq olar"-Mütəllibov bildirib.

# Müxalifət fəalları həbs edilib

**Fevralın 20-də D18 Hərəkatının üzvü Qadir Ağakişiyev Sumqayıt Şəhər Məhkəməsinin qərarı ilə 30 sutka inzibati həbsə məhkum edilib. Bu barədə D 18 Hərəkatının rəhbəri Ruslan İzzətli "Turan"a bildirib.**

"Qadir Ağakişiyevin həbsi siyasi fəaliyyəti ilə bağlıdır. Hakimiyyət həbslərlə gənclərin aktivləşməsinin qarşısını almağa və qorxu sistemini möhkəmləndirməyə çalışır. Amma bütün bu addımlar əks-effekt verir və gənclər daha da aktivləşir" deyə, Ruslan İzzətli fəalın həbsi barədə bildirib.

Daha bir müxalifət fəalı Namiq Abbasəliyev dünən polisin qanuni tələbinə tabe olmamaq ittihamı ilə Binəqədi Rayon Polis İdarəsinin 6-cı polis bölməsinə aparılıb. Fevralın 20-də Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) Masallı rayon şöbəsinin fəalları Elvin Bəhramov və Fərasət Əhmədov evlərindən polisə aparılıb və Masall Rayon Məhkəməsi polisin qanuni tələbinə tabe olmamaq ittihamı ilə onların hər birinə 30 sutka inzibati həbs verib. Bu barədə "Turan"a AXCP sədrinin müavini Gözəl Bayramlı bildirib.

G.Bayramlı AXCP-yə qarşı ölkəboyu təzyiqlərin davam etdiyini deyib. "Hər iki fəal facebookda tənqidi yazılarına görə həbs olunub. AXCP-yə ölkəboyu polis hücumu davam edir",- o vurğulayıb.

Xatırladaq ki, fevralın 20-də daha bir AXCP fəalı Amil Məmmədzadə 30 sutka inzibati həbsə məhkum edilib.

Hüquq- mühafizə orqanları bu həbslərlə bağlı hələ şərh verməyiblər.



# İlhamə Quliyevanın il mərasimi qalmaqallı-iki məclis olacaq

**Xalq artisti İlhamə Quliyevanın vəfatından artıq bir il ötür. Bir il ərzində mərhum sənətkarın qohumları, o cümlədən oğulluğa götürdüyü Orxan Nadirov ilə bacıları və digər qohumları arasında yaşanan çoxsaylı qalmaqalların şahidi olduq. Qalmaqal onun ölümünün ildönümü ərəfəsində də səngimək bilmir.**

Bu dəfə tərəflər arasında yas mərasimi qalmaqalı yaranıb, nəticədə fevralın 24-25-də sənətkar üçün ayrı-ayrı məscidlərdə il mərasimi keçiriləcək.

Belə ki, Orxan Nadirov müsavat.com-un əməkdaşına açıqlama verərək bildirib ki, fevralın 24-də "Heydər" məscidində mərhum sənətkar üçün yas mərasimi təşkil olunacaq. Mərasimə mətbuat orqanlarının nümayəndələri də dəvət olunub. Bundan xəbər tutan İlhamə Quliyevanın bacısı Gülbahar Quliyeva isə bərk əsəbləşib və axsam.az saytına açıqlama verərək O. Nadirovun keçirəcəyi ildönümü mərasimindən xəbərsiz olduğunu deyib:

"Orxan şou yaradır. Bizim İlhamə Quliyevanın fevralın 24-də Orxanın verəcəyi ildönümündən xəbərimiz yoxdur. İlhamə xanımın ailəsi bizik, ili də 25-də "Təzəpir" məscidində olacaq".

**Mərhum sənətkarın bacısı O. Nadirov barəsində ağır ittihamlar da səsləndirib:**

"Hamı, eləcə də İlhamə xanım sağlığında Orxanı oğul kimi qəbul etmədi. Əgər istəsəydi, onu rəsmi şəkildə oğlu kimi qəbul edərdi, amma etmədi, istəmədi. Orxan nə etmək istəyir? Konstitusiya qanunlarını dəyişdirəcək? Orxan düzgün yolda deyil. İlhamə hörmətli, tanınmış, sevimli xanım olub. Bu hərəkəti ilə Orxan ona ancaq xələl gətirməyə çalışır. Əl çək də, kimə lazımdır sənin etdiklərin? Birinci gündən ona dedik ki, ailənin yanında ol. Amma Orxan mirasın tək varisi olmaq istədi. Bir ildir məhkəmələri gəzir. Axı tək varis ola bilməzsən... İlhamə Quliyeva Orxanı sağlığında istəmədi, ölən ana qədər də bu sözünü dedi".

Xatırladaq ki, xalq artisti İlhamə Quliyeva ötən il fevralın 25-də tromboemboliyadan dünyasını dəyişib. Məhkəmənin qərarı ilə sənətkarın bütün mirası onun xala uşaqları və bibi uşaqlarına qalıb. Oğulluğu hesab edilən Orxan Nadirovun varisliklə bağlı şikayəti isə təmin olunmayıb.

❑ **Xalidə GƏRAY**



# Roma papasının nümayəndəsi: "Xocalıda soyqırım olub "

**Roma papasının Bakıdakı nümayəndəsi Vladimir Fekete Xocalı soyqırımının bəşəriyyətə qarşı ən böyük ədalətsizlik adlandırıb.**

APA-nın məlumatına görə, Qafqaz Müsəlmanları İdarəsində fevralın 21-də keçirilən "Xocalı soyqırımı xalqın qan yaddaşıdır!!! "Xocalıya ədalət!"" adlı tədbirdə V. Fekete bildirib ki, Xocalıda insanlar soyqırıma məruz qalıb və o, həmişə həmin qurbanlar üçün duasını əsirgəməyəcək.

O qeyd edib ki, Xocalıda insanlığa qarşı cinayət törətməklə günah və ədalətsizlik işlədənlər cəzasız qalmayacaq: "Böyük Yaradan mütləq onların cəzasını verəcək. Mən Xocalıda törədilən soyqırıma, ədalətsizliyə məruz qalan azərbaycanlılar üçün duamı heç vaxt əsirgəməyəcəyəm".



# Elmar Məmmədyarov Türkiyədədir

**Xarici işlər naziri Elmar Məmmədyarov fevralın 22-də Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası (Türk Şurası) və Ahmet Yasevi Universitetinin təşkilatçılığı ilə Ankara şəhərində keçiriləcək "Xocalı soyqırımı, bəşəriyyətə qarşı cinayətlər və terrorizm" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün Türkiyəyə işgüzar səfərə yola düşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, konfransın açılış panelində Türk Şurasının baş katibi Ramil Həsənov, Azərbaycan və Türkiyənin xarici işlər nazirləri Elmar Məmmədyarov və Mövlud Çavuşoğlu, eləcə də Türkiyə baş nazirinin köməkçisi Toğrul Türkeşin çıxışı nəzərdə tutulub.

Səfər əsnasında nazir Elmar Məmmədyarovun həmçinin ikitərəfli görüşləri də planlaşdırılıb.

YENİ MÜSAVAT
N 40 (6654) 22 fevral 2017

# Xocalı soyqırımı-25

## Ölkənin siyasi partiyaları anım günü ilə bağlı bir sıra tədbirlər keçirməyi planlaşdırır

**Fevralın 26-da Xocalı soyqırımının 25 ili tamam olur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artileriyadan şiddətli atəşə tutuldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü.**

Artıq Xocalı soyqırımının 25-ci il dönümü ilə bağlı xarici ölkələrdə vətəndaşlarımız, müxtəlif ictimai birliklər tərəfindən faciə qurbanlarının xatirəsinə həsr olunan anım tədbirləri keçirilməyə başlayıb.

Bəs faciə günü ölkənin siyasi partiyaları hansı tədbirləri keçirməyi nəzərdə tutublar?

Sorğumuz nəticəsində öyrəndik ki, partiyaların çoxu Xocalı soyqırımının anım günü, faciə qurbanlarının xatirəsinə həsr olunan "Ana fəryadı" abidəsini saat 12:00-da ziyarət edəcəklər. Onlar bu faciəni birlikdə anmağı düşünürlər...

**AG Partiya sədri Tural Abbaslı "Yeni Müsavat"a bildirib ki, bu il faciənin ildönümü ilə əlaqədar hansısa tədbir keçirməyi planlaşdırmırlar:** "Faciə günü "Ana fəryadı" abidəsini ziyarət edərək önünə əklil qoyacağıq. Bu ziyarətdə partiya üzvlərinin kütləvi iştirakını təmin etmək niyyətindəyik. Həm də artıq AG Partiyanın da təmsil olunduğu birləşmiş müxalifət koalisiyasının da qərarı var ki, bu ziyarəti partiyalar birlikdə etsin. Biz də burada təmsil olunan digər partiyalarla ( KXCP, ADP, VİP, AXP, ALDP, AZADLIQ və s.) birlikdə ziyarətdə iştirak edəcəyik".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev "Yeni Müsavat"a bildirib ki, "Azadlıq" Siyasi Partiyaların Əməkdaşlıq Mərkəzinin üzvü olan partiyalar həmin günü saat 13:00-da toplantı keçirəcəklər:** "Bununla yanaşı, "Ana fəryadı" abidəsini də ziyarət edəcəyik".

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami "Yeni Müsavat"a bildirib ki, onlar 26 fevral saat 12:00-da "Ana fəryadı" abidəsini ziyarət etməyi planlaşdırırlar:** "Bundan əlavə, "Xocalı soyqırımı"na həsr olunmuş dəyirmi masa keçirəcəyik".

**KXCP sədrinin müavini Xəzər Teyyublu söyləyib ki, 26 fevralda saat 12:00-da KXCP, bu ağır faciə gününü yad edərək, Xocalı şəhidlərinin xatirəsinə ucaldılmış "Ana fəryadı" abidəsini ziyarət edəcəklər:** "Bu ziyarəti biz KXCP-yə mütəfiq partiyalarla birlikdə etməyi düşünürük".




Müsavat Partiyasının isə fevralın 6-da keçirilən Divan iclasında Xocalı soyqırımının 25 illiyi ilə bağlı fevral ayının 26-da böyük yürüş keçirilməsi təklif edilib.

**ADP sədrinin müavini Həsrət Rüstəmov bildirib ki, Xocalı soyqırımı ilə bağlı onlar artıq tədbirlərə başlayıblar:** "Hər il olduğu kimi, bu il də fevralın 26-da "Ana fəryadı" abidəsini ziyarət edəcəyik. Bu ziyarətdə partiyanın rəhbərliyi və Bakı şəhər təşkilatlarının üzvləri iştirak edəcəklər. Çox güman ki, digər partiyaların nümayəndələri ilə birlikdə bu ziyarətə qoşulaq. Son zamanlar müxalifət birliyi istiqamətində danışıqlar gedir və abidənin ziyarətində də bu partiyaların birgə iştirakı nəzərdə tutulub. Bununla bağlı qərarımız dəqiq deyil. Ancaq yəqin ki, bu günlər ərzində yekun qərar veriləcək. Eyni zamanda fevralın 20-də partiyanın idarə heyətində müzakirələr etmişik və "Xocalı soyqırımı" ilə bağlı bəyanat da yayacağıq. Xocalı hadisələri hər zaman partiyamız tərəfindən diqqət mərkəzində saxlanılır".

**Vətəndaş Həmrəyliyi Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli də qəzetimizə bildirib ki, artıq onların partiyası da bölgələrdə, rayon təşkilatlarında Xocalı hadisələri ilə bağlı tədbirlər keçirirlər:** "Fevralın 26-da Xocalı rayon təşkilatı Gəncə şəhərində tədbir keçirəcək. Partiya rəhbərliyi və üzvlərlə isə 26 fevral saat 12:00-da Xocalı şəhidlərinin xatirəsinə həsr olunan abidəni ziyarət edəcəyik".

❑ **Əli RAİS**

# Əfvə beynəlxalq təşkilatlar, yoxsa azərbaycanlı mühacirlər mane ola bilər?

## Səidə Qocamanlı: "Mühacirlər siyasi məhbus məsələsini alverə çeviriblər"

**Martda prezident İlham Əliyevin əfv sərəncamı verəcəyi gözlənilir. Adətən əfv sərəncamı veriləcəyi ərəfədə beynəlxalq təşkilatlardan Azərbaycana yönəlik təzyiqlərin sayı getdikcə artmağa başlayır. Ölkə iqtidarı isə daim belə təzyiqlərin nəinki qarşısından çəkilib, əksinə, direniş yolunu seçib. Nəticədə gözlənilən əfv ya verilməyib, ya da azadlığa çıxacaqları gözlənilən tanınmış siyasi məhbusların adları siyahıdan kənarda qalıb. İndi də eyni situasiya yaranıb. Artıq bu ilin əvvəllərindən başlayaraq, beynəlxalq hüquq-müdafiə təşkilatlarının Azərbaycanın ünvanına sərt bəyanatlarına, hesabatlarına rast gəlirik. Bu da ölkənin hüquq müdafiəçilərində ciddi narahatlıq yaradıb.**

Müsavat Partiyasının Avropada yaşayan mühacirlərinin fevralın 18-də Almaniyanın Köln şəhərində "Siyasi məhbuslara azadlıq!" şüarı ilə təşkil etdiyi aksiya da ciddi narahatlığa səbəb olub. Əksəriyyət bu aksiyanın əfv öncəsi keçirilməsini gərəksiz sayır. Aksiyada əllərdə gəzən siyasi məhbus fotolarının onların azadlığa çıxmasına mane olacağı vurğulanır. Artıq bu aksiya ilə bağlı bir sıra iddialar meydana çıxıb. Belə ki, həmin aksiyanın əksər iştirakçılarının Avropada oturum ala bilmədikləri, buna görə belə aksiyalarda iştirak etməklə, oturum almaq istədikləri qeyd olunur.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı** Avropadan atılacaq addımlardan ciddi narahat olduqlarını bildirdi: "Ötən müsahibələrimin birində qeyd etmişdim ki, əgər qarşıdakı bir ayda ölkə xarici və daxilindən lazımsız bir addım atılsa, yaxud yanlışlığa yol verilib, lazımsız açıqlamalar verilsə, elə bir şey gözlənilir. Elə qüvvələr var ki, bu əfvin verilməsində maraqlı deyillər. Buna tam əminəm. Artıq siyasi məhbus məsələsini alver predmetinə çeviriblər. Məhz buna görə əfvin verilməməsində maraqlı olan qüvvələr var. Ümid edirəm ki, dövlətimiz, lazımi strukturlar bu provokasiyaya getməyəcək, öz humanist addımını atacaq. Çünki artıq belə təzyiqlər indiyə qədər dəfələrlə olub. Biz gərək onlardan yüksəkdə duraq. Siyahımızda olan şəxslərin azadlığa buraxılması dövlətimiz, millətimiz üçün müsbət imic gətirər. Həmin şəxslərin məhbəsdə saxlanılması ilə biz heç nə qazanmırıq. Elə ki bəlli olur ki, əfv olacaq, həmin an kimsə hesabatlar ortaya çıxarır, yaxud planlı şəkildə müsahibələr verir. İstəyirlər ki, Azərbaycanın adı daim aşağılarda olsun, ölkəmiz beynəlxalq arenada təzyiqlərlə üzləşsin. Əfv Komissiyası hazırda böyük şövqlə əfvə hazırlaşır. İnanıram ki, bizim siyahımız da nəzərə alınacaq. Hamıdan çox maraqlıyıq ki, əfv sərəncamı verilsin".



**Hüquq müdafiəçi Müsavatın Almaniyada keçirdiyi siyasi məhbuslarla bağlı aksiyaya da toxundu:** "Şübhə edirəm ki, aksiyaya toplananların çoxu müsavatçılar olsun. Çünki bizə bəllidir ki, belə tədbirlər Avropada keçiriləndə aidiyyəti olmayan şəxslər iştirak edirlər. Oturum marağında olan şəxslər belə aksiyalara gəlirlər, şəkillər çəkdirirlər, ondan sonra da belə fotoları müvafiq orqanlara verirlər. Azərbaycanda ailəsi və özünün vaxtilə təzyiqlərə məruz qaldığını deyirlər. Belə aksiyalar artıq Avropadan oturum almaq üçün məqsədli şəkildə keçirilir. Bu təhlükə indi də var ki, bu cür addımlar işimizə mane olsun. Avropaya gedən mühacirlər artıq siyasi məhbus məsələsini alverə çeviriblər. Hesab edirəm ki, belə hallara son qoymaq üçün Avropadakı miqrasiya xidmətləri ayıq-sayıq olmalıdırlar. Bilməlidirlər ki, belə şəxslər hansı maraqla Avropaya gediblər. Sözsüz ki, belə fikirlərimi bütün mühacirlərə aid etmirəm. Elə Avropaya gedən dostlarımız var ki, getdikləri gündən oranın mədəniyyətinə uyğunlaşmağı daha üstün tutublar. Həmin ölkələrə töhfə verirlər. Amma elələri də var ki, ora gedib dövlətin pulunun hesabına dolanmaq istəyirlər. Pulları alırlar və hesab edirlər ki, bu daha xoşagələn həyatdır. Sən getmisənsə, demək, o ölkənin adət-ənənəsi ilə hərəkət etməlisən, ən azından susmalısan. Orada oturub Azərbaycanı söymək yolverilməz haldır. O qədər müsavatçılar var ki, dediyim kateqoriyaya aiddirlər. Artıq yaşadıqları ölkənin həyatına uyğunlaşıblar".

**S.Qocamanlı Müsavatın Köln aksiyasının müxtəlif qüvvələr tərəfindən təşkil oluna biləcəyini də vurğuladı:** "Müsavat Partiyasının bu aksiyanı özünün təşkil etməsi ilə bağlı bir söz deyə bilmərəm. Çünki belə fikirlərə rast gəlməmişəm. Sizin qəzetiniz vasitəsilə Avropadakı azərbaycanlı mühacirlərə müraciət edirəm. Vətəninizi sevin, xaricdə oturub başqa ölkənin çörəyini yeyə-yeyə öz ölkənizi aşağılamayın, pis duruma salmayın. Sizlər getmisiniz, amma yaxınlarınız bu ölkənin çörəyini yeyirlər. Əgər istəyirsənsə, Azərbaycanda hər şey yaxşı olsun, o zaman qayıt ölkənə və öz işini gör. Uzaqdan-uzağa danışmaq, ölkəni təhqir etmək acizliyin bir nümunəsidir. Elə yaxşı oğlan, yaxud qızsansa, gəl otur ölkəndə, öz mübarizəni apar. Lazım olsa biz də gedərdik, baxmayaraq ki, bir çox çətinliklərlə üzləşirik. İstənilən halda bu ölkə bizim vətənimizdir. Biz bu vətəni seçmişik".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 40 (6654) 22 fevral 2017

# Yazarların "da", "də"li dartışması...

**Sosial şəbəkə bəzən insanların dil bilgilərini, qrammatik savadını üzə çıxarır. Yazılan statuslarda, şərhlərdə insanların yol verdiyi qrammatik xətalar əslində onlar üçün ciddi qüsur sayılır. Sözlərin düzgün yazılışını bilməyən, habelə bağlayıcı və şəkilçi arasındakı fərqdən anlayışı olmayan, durğu işarələri ilə "arası yaxşı olmayan" şəxslərin bu məsələdə vahid mövqeyi, daha dəqiq desək, təsəllisi olur.**

Onlar hesab edirlər ki, sosial şəbəkə onların şəxsi sahəsi, necə deyərlər, dost məclisidir və burada rəsmiyyətdən uzaq olmaq lazımdır. "Mən niyə sosial şəbəkədə imla yazar kimi yazmalıyam" sualı isə çox vaxt belə səhvlərə yol verənlərin arqumenti olur.

Amma bugünlərdə sözügedən mövzu iki yazarımız arasında fikir ayrılığı yaradıb. Onlardan biri tanınmış teleaparıcı-yazar İlhamiyyə Rzadır. İ.Rza bu mövzu ilə bağlı aşağıdakıları yazıb: "Diqqət!!! Dost listəmdə olan bütün istifadəçilərə! Hamıya! Uğurlu iş adamlarına, tələbələrə, cavan və orta yaşlılara, mənəm-mənəm deyib də bu sadə qaydaları bilməyənlərə. Bilib də eyninə almayanlara, bilməyib kobud səhvlər buraxanlara və özlərini gözdən salanlara, əlahəzrət sözü(dilimizi) it gününə qoyub mənaya xələl gətirənlərə!

Azərbaycan dilində "da, də" bir neçə funksiyanı yerinə yetirir:

1. İsmin yerlik hal şəkilçisi ola bilər. Bu vaxt sözə bitişik yazılır. Məs: vətəndə, anamda və s.

2. Zərf düzəldən leksik şəkilçi ola bilər.Sözə bitişik yazılır. Məs: gündə, yayda, qışda və s.

3. Bağlayıcı kimi işlənir və ayrı yazılır. Məs: Mən də vuruşmağa hazıram. Səni də, məni də tədbirə dəvət ediblər.

4. Ədat kimi də işlənə bilər. Ayrı yazılır. Məs: Qulaq asın da. Məni gözləyin də. Yaz da, qızım, niyə dayanmısan?

Hamınıza *(ilk növbədə özümə və əsəblərimə)* dərin sevgi və sayğılarımla".

Sözügedən status ölkənin tanınmış qələm adamları, redaktorlar və ziyalılar tərəfindən paylaşılıb. Məlum olub ki, mövzu bir çoxları üçün "yaralı yer" mahiyyətini daşıyır. Bir gün sonra isə "Yeni Müsavat" qəzetinin köşə yazarı Zamin Hacı "Yol qəzasına çarpayıda düşməzlər" başlıqlı köşə yazısında bu mövzuya toxunub. Yazarımız aşağıdakıları yazıb: "Hazırda cəmiyyətimizdə bir xeyli adam da var ki, bunların əsas dərdi "da ayrı yazılır", "vergülü hara qoyaq" tipindədir. (Hikmət Hacızadənin 1990-cı illərdə yazdığı "Vergül" absurd pyesi təxminən bu temaya həsr edilib). Yoldaşlar, millətin ağzı tamam yumulub, danışmağına imkan verilmir, hətta qırıq səslər çıxardanları da zindana salırlar, burda orfoqrafiya qaydalarından, düzgün yazılışdan dəm vurmaq yüngül yazsam, gülməli deyilmi?



**İlhamiyyə Rza:** "Unutmayın, Azərbaycan dilində "da, də" bir neçə funksiyanı yerinə yetirir"



**Zamin Hacı:** "Azad adamın yazısında "da" ayrı olanda da gözəldir, bitişik olanda da"



**Azər Ayxan:** "Ölkədə siyasi-iqtisadi problem varsa, bu, o demək deyil ki, danışığımızı, yazımızı qaydaya salmamalıyıq"

"Da, də"ni yazmaq hüququ əldə edək, sonra ayrıdır, bitişikdir, buna gələrik. Əslində heç o zaman buna ehtiyac qalmır. Azad adamın yazısında "da" ayrı olanda da gözəldir, bitişik olanda da".

Baxmayaraq ki, Z.Hacı öz köşə və sosial şəbəkədəki statuslarında dilin qrammatika qanunlarına riayət edir, onun məsələyə daha konseptual, bir qədərsə fəlsəfi baxışı İ.Rzanınkından fərqlənir. Amma bu məsələdən daha çox narazı olanlar heç şübhəsiz ki, redaktorlardır. Onlar üçün bu məsələ hər zaman prioritet olub.

**"Yeni Müsavat" qəzeti baş redaktorunun birinci müavini Azər Ayxan yazı dilinin qaydalarına hətta sosial şəbəkələrdə riayət olunmasının birmənalı qaydada tərəfdarı olduğunu dedi:** "Həmkarlarımızın mübahisəsini anlayışla qarşılayıram. Bu cür fikir dartışmalarının xeyri var. Bunun özü də intellektual potensialı ortaya qoyur. Həqiqət mübahisələr zamanı ortaya çıxır. Danışığımız necə səlis olmalıdırsa, yazımız da o cür savadlı olmalıdır. Hesab edək ki, kimsə qüsurlu danışır. O adamla danışanda necə əziyyət çəkiriksə, savadsız yazını oxuyanda da eyni cür əziyyət çəkirik".

**A.Ayxan dedi ki, bu qaydalara riayət olunmalıdır. Müsahibimizin sözlərinə görə, bunu təkcə sosial şəbəkələrdəki yazışmalara, statuslara aid etmək lazım deyil:** "Bəzən mətbuat xidmətlərinin bülletenlərində, rəsmi xəbərlərdə o qədər qüsurlu cümlələr, "mışdır-müşdür" sonluqları olur. 5 cümləlik xəbərin üzərində dəqiqələrlə çalışırıq. Hər kəs zəhmət çəksin, danışığını da, yazısını da nizama salsın. Ölkədə siyasi-iqtisadi problem varsa, bu, o demək deyil ki, danışığımızı, yazımızı qaydaya salmamalıyıq. İqtisadi-siyasi problemlərin həlli bu qaydalara riayət etməkdən keçmir, doğrudur. Amma "necə istəyirəm, o cür yazıram" yanaşması da doğru deyil. Hər sahədə olan çatışmazlığı demək lazımdır. Yazı məsələləri ilə bağlı ortaya çıxan problemləri demək lazımdır. Deyə bilmərik ki, ölkədə demokratik mühit pisdir deyə, qüsurlu yazmaq normadır. Hər bir sahəyə özünün tələb etdiyi həssaslığı göstərməliyik".

❑ **Sevinc TELMANQIZI**

# Əli İnsanovun martda azadlığa çıxacağı iddiaları artır

## Elşad Musayev: "Hakimiyyət daxilindəki əsas qüvvələr onun həbsdə qalmasını istəyirlər"



Əli İnsanov

**Əli İnsanovun adının əfv siyahısına salınması ilə bağlı hüquq müdafiəçisi Novella Cəfəroğlunun açıqlaması sabiq səhiyyə nazirini yenidən diqqət mərkəzinə gətirib.**

Doğrudur, Ə.İnsanovun adı sadəcə bir qurumun Əfv Komissiyasına təqdim etdiyi 27 nəfərlik siyahıya salınıb. Onun əfvlə azadlığa çıxması da mümkün deyil. Çünki martın 11-də onun barəsindəki həbs-qətimkan tədbirinin müddəti bitir və bir həftənin içərisində məhkəmənin qərar verəcəyi mümkünsüzdür. Sabiq nazirin yalnız məhkəmənin onu ev dustaqlığına buraxacağı təqdirdə azadlığa çıxmaq şansı var. Çünki onun cinayət işinə xitam verilməsi indiki halda inandırıcı deyil. Bütün bunlara rəğmən, keçmiş dövlət məmurunun martda azad olunacağı ilə bağlı səslənən iddiaların sayı durmadan artır.




Elşad Musayev

**Qərbi Azərbaycandan olan Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev dolaşan fikirlərə bu cür münasibət sərgilədi:** "Novella xanımın son dediklərindən sonra Əli İnsanov barəsində bu cür fikirlərin yaranması normaldır. Onunla bağlı Avropa Məhkəməsinin də qərarı var. Ortada bir reallıq var ki, İnsanovu həbsdən azad etmək istəmirlər. 11 illik cəzası bitəndən sonra onun barəsində qurama cinayət işi açıblar. Müxtəlif yollarla bu şəxsin həbsdən azad olunmasına mane olurlar. İnsanov azadlığa çıxarkən hansı işlərlə məşğul olacağı ilə bağlı hərə bir söz deyir. Amma o, azadlığa çıxdığı zaman siyasətlə məşğul olub-olmayacağı ilə bağlı konkret fikir söyləməyib. Özünün bir siyasi təşkilatını da qurmayıb. Adamın hüquqları pozulur. Açığı, onun əfvlə azad olunacağına inanmıram. Bizdə olan informasiyalara görə, onunla bağlı hazırda Avropadan ciddi təzyiqlər var. Hakimiyyətin ən yüksək dairələrinin nümayəndələrinin avropalı nümayəndələrlə görüşlərində İnsanovun dəfələrlə məsələsinin qaldırıldığı bildirilir. Hökumət hələ ki tələblərə əhəmiyyət vermir. Fərhad Əliyevi sındırdılar, amma Əli İnsanovu yox. Bunu çox yaxşı bilirlər".

**E.Musayev indiyə qədər hakimiyyətin sabiq nazirə müxtəlif təkliflərinin olduğunu söylədi:** "İnsanova təzyiqlərlə bərabər, eyni zamanda təkliflər də olub. Əsas təklif odur ki, əfv ərizəsi yazsın. Əli İnsanov da buna getmir. Bu səbəbdən də iqtidarın inadkarlığı artır. Hakimiyyətin bir şansı qalır ki, məhkəməni tez edib İnsanova yüngül cəza versinlər. Bu da ağlabatan deyil. Hakimiyyət daxilindəki əsas qüvvələr onun həbsdə qalmasını istəyirlər. Hakimiyyətin özü də çıxılmaz vəziyyətdədir. İnsanova tribuna vermək istəmirlər. O məhkəmə tribuna olacaq. Belə olan halda İnsanov öz sözlərini deyəcək. Martın 11-nə az müddət qaldı, görək iqtidar hansı qərarı verəcək. Onun azadlığını qanun tələb edir".

**Müsahibimiz sabiq nazirin son durumundan da danışdı:** "Əli İnsanov tək-tək adamlardandır ki, həbsdə olduğu müddətdə ailəsi ilə görüşməyib, əlaqə belə saxlamayıb. İki ailə üzvü ilə mütəmadi görüşür. Səhhətində ciddi problem yoxdur, əhval-ruhiyyəsi də normaldır. Mübariz ruhda olan şəxsdir. O yaşında mübarizə aparmaq asan iş deyil. Vaxtilə Azərbaycan mətbuatı başdan-ayağa silahlanıb, Fərhad Əliyevi müdafiə edirdi. İnsanova qarşı hətta hücuma keçilmişdi. Amma zaman göstərdi ki, İnsanov daha dəyanətli insandır. Bu çətin mərhələni də keçəcək".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 40 (6654) 22 fevral 2017

# İlham Rəhimovun məhbuslarla bağlı təklifinə reaksiyalar

**Hüquq elmləri doktoru, professor İlham Rəhimov "Yeni Müsavat"ın ötən sayında gedən müsahibəsində bir sıra maraqlı məqamlara toxunub, təkliflər irəli sürüb. Professorun əsas diqqətçəkən təklifi məhbusların reabilitasiyası ilə bağlı olub.**

"Əgər bu gün dövlətin reabilitasiya üçün ayırmağa ciddi vəsaiti yoxdursa, bu işə iş adamları cəlb edilə bilər. Məsələn, tikinti biznesi ilə məşğul olan bir şirkətlə müqavilə bağlana, cəzaçəkmə müəssisələrindəki məhkumlardan şirkətdə fəhlə kimi istifadə edilə bilər. Təbii, burada nəzarət funksiyası ədliyyə orqanlarının üzərinə düşür. İşləyəcək şəxslərin seçilməsini, onlara tam nəzarət edilməsini bu struktur həyata keçirməlidir. Görülən işin qarşılığında isə şirkət ədliyyə orqanlarına vəsait ödəyər. Ədliyyə orqanı öz sırasında məhkumlara müəyyən vəsait ayırar. Beləliklə, dövlət ciddi bir yükdən qurtularaq bir neçə aspektdən xeyir əldə edə bilər"-deyə İ.Rəhimov vurğulayıb.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa bu məsələnin daim gündəmdə olduğunu söylədi:** "İş adamlarının bu prosesə qoşulması, fikrimcə, vacib məsələlərdən biridir. Amma bunun nə dərəcədə effektli olmasını zaman göstərər. Biz də çalışmalıyıq ki, bu istiqamətdə hər hansı bir yenilik olarsa, bunu diqqətdə saxlayaq. Məhbuslara da bu şansın tanınması, onların fiziki güclərindən istifadə olunması mümkündür".

**İqtisadçı ekspert Natiq Cəfərli professorun təklifi ilə bağlı bunları dedi:** "Buna imkan verilməməlidir ki, sovetlər dönəmində olduğu kimi, məhbuslardan hər hansı bir formada istismar nöqteyi-nəzərindən istifadə olunsun. Stalin dönəmindən başlayaraq, iqtisadiyyatın inkişafında böyük mənada məhbuslardan istifadə olunurdu.



**Fazil Mustafa:**
"İş adamlarının bu prosesə qoşulması..."



**Natiq Cəfərli:**
"Dövlət və özəl şirkətlərin işbirliyindən hər iki tərəf uda bilər"

Onların ödənişləri edilmədən iqtisadiyyatın müxtəlif sahələrində çalışırdılar. Azərbaycanda belə bir praktika olmasın deyə, bunun qanunvericilik bazası hazırlanmalıdır. İş adamlarına müəyyən təkliflər olmalıdır. Əgər onlar bu sahədə müəyyən addımlar atacaqlarsa, o zaman onlara bəzi güzəştlər olmalıdır. Əks halda, onların məhbuslarla işləmələrinə heç bir maraqları olmayacaq. Təəssüf ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da məhbuslara ciddi şübhə ilə yanaşırlar. Onların işlə təmin olunmalarına şübhə ilə yanaşılır. Bu, ən azından doğru yanaşma deyil. Ona görə iş adamlarına stimul verilməlidir ki, onlar bu sahədə bundan istifadə etsinlər, dövlətə dəstək olsunlar. Bunlar olmasa, hər hansı bir göstərişlə, yaxud inzibati qərarla bunları etmək mümkün olmayacaq. Dövlətin iş adamları ilə bu sahədə birliyi dünyada yayılmış bir metoddur. Azərbaycanda da bundan istifadə etmək olar. İş adamlarına stimul verəcək təkliflər olunmalıdır. Amerikada özəl şirkətlərin idarəçiliyində olan həbsxanalar var. Dövlət öz xərclərini azaltmaq üçün iş adamları, özəl şirkətlərlə anlaşır, məhbusların işlədilməsinə icazə verir. Təbii ki, burada dövlətin nəzarəti çox güclüdür. Amma bütün xərcləri özəl şirkətlər öz üzərinə götürür".

**İqtisadçı ekspert dövlətin bu addımı atarsa, qazanacağı nəticələrdən də söz açdı:** "Səhv etmirəmsə, bir məhbusun saxlanılması dövlətə 19 manata başa gəlir. Bu da kifayət qədər böyük məbləğdir. Bu da eyni zamanda büdcəyə əlavə yükdür. Həbsxanada olanlar, eləcə də şərti azadlıqda olan məhbuslar işləyərək həm öz xərclərini, həm də özəl şirkətlər onların saxlanılması xərclərini ödəməklə dövlətin yükünü azalda bilərlər. Dövlət və özəl şirkətlərin işbirliyindən hər iki tərəf uda bilər".

❑ **Cavanşir ABBASLI**

# Rəsmi Bakı Qarabağa "referendum" izləməyə gələnləri araşdırır

**Hikmət Hacıyev:** "Həmin ölkələrin xarici işlər nazirliklərinə müvafiq müraciətlər və etirazlar göndəriləcək"

**İşğaldakı Azərbaycan torpaqlarında fevralın 20-də keçirilmiş qanunsuz "konstitusiya referendumu" ilə bağlı rəqəmlər açıqlanıb. Novator.az-ın məlumatına görə, işğalçı rejim qeyri-qanuni aksiyaya 79,4 min nəfərin qatıldığını iddia edir. Bu, səsvermə siyahısına salınmış 102,7 min nəfərin 76 faizindən çoxdur.**

87,6 faizin "konstitusiya" dəyişikliklərinə tərəfdar çıxdığı vurğulanır. Erməni mənbələri "referendum"u 104 xarici, 103 yerli müşahidəçinin, 80-dən çox jurnalistin izlədiyini bildirir.

Yeni "konstitusiya" layihəsinə görə, bölgənin adı dəyişir. Separatçı rejim "Dağlıq Qarabağ Respublikası" adını ikinci plana keçirir, "Arsax Respublikası" əsas ad olur, işğalçı rejim "prezident respublikası"na çevrilir.

Dağlıq Qarabağ vilayəti 1991-ci il sentyabrın 2-də özünü müstəqil dövlət elan edib. Ermənistan silahlı qüvvələri bu bölgəni və daha 7 rayonu zəbt edib. İşğalçı rejim 1991-ci ildən indiyəcən seçki adı altında daha 19 qanunsuz aksiya keçirib: 6 "parlament seçkisi", 5 "prezident seçkisi", 6 "bələdiyyə seçkiləri", 2 "referendum".

**Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) qabaqcadan bu cəhdin qanunsuz olduğunu dünyaya bəyan etmişdi. Nazirliyin mətbuat katibi Hikmət Hacıyev Dağlıq Qarabağda keçirilən "referendum"a münasibət bildirərkən "Yeni Müsavat"a bunları söylədi:** "İşğal altında keçirilən bu "referendum" bütün beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə rədd edildi və onun nəticələri qəbul olunmadı. Yeni Ermənistan özünü və beynəlxalq ictimaiyyəti aldatmaqla siyasi təxribat xəttini davam etdirdiyini bir daha sübut etdi".

**Diplomat erməni təbliğatının "müşahidəçilər"lə bağlı iddialarına da reaksiya verdi:** "Ermənistan özünün qanunsuz əməllərinə bəraət qazandırmaq üçün guya kimlərsə tərəfindən "referendum"un müşahidə olunması barədə iddialar irəli sürürdü. Biz bunları da əsassız hesab edirik. İlkin



araşdırmalarımız bunu deməyə əsas verir ki, "referendum"un "müşahidiləri" adı altında işğal olunmuş ərazilərimizə qanunsuz səfər edənlərin əksəriyyətini artıq XİN-in siyahısında olan şəxslər təşkil edir. Məsələn, Frenk Engel və digərləri artıq çoxdandır ki, Azərbaycanın arzuolunmaz şəxslər siyahısındadırlar. Ermənistan, göründüyü kimi, bura özünün istədiyi və arzuladığı yeni şəxsləri cəlb edə bilməmişdi. Orada bir-iki nəfər - məsələn, Boliviyanın əyalətindən olan millət vəkilləri - ola bilər ki, onlar özləri də hardadırlar və nəyə görə gəliblər sualına cavab tapa bilməyiblər. Bu qəbildən olan şəxslərlə bağlı araşdırmalar aparılandan sonra onların da adı arzuolunmaz şəxslər siyahısına daxil ediləcək. Biz bir neçə nəfərdən danışa bilərik, amma əksər adamlar artıq siyahıdadırlar".

**XİN rəsmisi Qarabağdakı qanunsuzluğu müşahidə etməyə gələnlərin sayının şişirdildiyini də vurğuladı:** "Bunu erməni tərəfi deyir, bu barədə iddialar irəli sürür. Onlar erməni lobbisinin təmsilçilərini də siyahıya əlavə edərək böyük bir rəqəm ortaya çıxartmağa çalışırlar. Amma hər şey göz qabağındadır".

**H.Hacıyev Dağlıq Qarabağa qanunsuz gələn şəxslərin ölkələrinə, müvafiq təşkilatlara müraciətlərin olacağını da vurğuladı:** "Milli Məclisin xətti ilə müvafiq dövlətlərin parlamentlərinə - hansı ki, həmin ölkələrin parlamentarları iştirak edib - o ölkələrin XİN-lərinə müvafiq müraciətlər və etirazlar göndəriləcək, adlar "arzuolunmaz şəxslər"in siyahısına salınacaq. Amma hər bir halda bu prosesdə iştirak özfəaliyyətdən başqa bir şey deyil. Yeni heç bir dövlət və beynəlxalq təşkilat bu qondarma tədbirdə iştirak üçün missiya göndərməyib və göndərmək fikrində olmayıb".

❑ **Cavid TURAN**

# Təhsil Nazirliyi "Novruz mühazirələri"nə başladı

## Çingiz Abdullayev: "İlk illər siyasi detektiv yazmağa başlayanda dedilər ki, "getsin göyərtisini satsın"...







**Fevralın 21-də Təhsil Nazirliyi "Novruz mühazirələri"nə başlayıb. Musavat.com-un tədbirdə iştirak edən əməkdaşı xəbər verir ki, İçərişəhərdə - "Muğam klub"da keçirilən "Novruz mühazirələri"nin ilk görüşündə xalq yazıçısı Çingiz Abdullayev "Sözün təbiət və ədəbiyyat şəkli: zamanın gerisində, yoxsa..." mövzusundan danışıb.**

Ç.Abdullayev tədbirdə iştirak edən millət vəkilləri, redaktor və ziyalılar qarşısında çıxış edərkən öncə Azərbaycan gənclərinin inkişafında mütaliənin rolunu vurğulayıb. "Azərbaycan xalqı yeganə xalqdır ki, uşaqlarının təhsil almaması üçün pul verir" deyən xalq yazıçısının sözlərinə görə, dünyanın ən varlı adamları savadlı adamlardır: "Amerikada belə bir deyim var ki, "əgər sən belə ağıllısansa, niyə varlı deyilsən?" Biz bütün həyatımız boyu təhsilin faydasından danışmalıyıq. Axı təhsilsiz adam kora bənzəyir. Kor adam rəngləri seçə bilmir axı".

**Ç.Abdullayev tədbirdə iştirak edən gənclərə də maraqlı tövsiyələr verib. Deyib ki, oğlanlar da, qızlar da savadlı insanlarla ailə qursa, həyatları daha gözəl olar:** "İngilis alimləri araşdırıblar ki, savadlı qızlarla ailə quran gənclər 3-4 il daha çox yaşayır. Bu faktı nə qızlar, nə də oğlanlar unutmamalıdır".

**Ç.Abdullayev ilk dəfə siyasi detektiv yazmağa başlayanda ona Moskvada birmənalı yanaşılmadığını xatırladıb.** "Ona deyin, gedib qoyununu otarsın, göyərtisini satsın" kimi aşağılayıcı yanaşma ilə qarşılaşdığını deyən Ç.Abdullayev öz sahəsi üzrə uğur qazanaraq, bu sözü deyənləri yanıldıb: "Məndən soruşanda hər zaman deyirəm ki, övladlarımın yazıçı olmasını heç vaxt istəməzdim. Çünki 100 yazıçıdan biri uğur qazanır. Uğursuz yazıçı isə əsl faciədir".

Tədbirdə daha sonra Ç.Abdullayev iştirakçıların suallarını cavablandırıb.

Musavat.com xatırladır ki, "Novruz mühazirələri"nin keçirilməsinin əsas məqsədi təhsil və elmin bu və ya digər sahələrə dair mövzunun gündəmə gətirilməsi və populyar dildə təqdim olunmasıdır. Təhsil Nazirliyi ötən ildən başlayaraq, "Novruz mühazirələri" keçirir. Mühazirələrdə tanınmış alimlər, beynəlxalq və yerli təhsil ekspertləri davamlı inkişaf, Novruz bayramının tarixi kökləri, ölkəmizdə informasiya texnologiyaları sahəsinin inkişafı, postmodernist və təhsil mövzularından bəhs ediblər.

❑ **Sevinc TELMANQIZI**
❑ **Fotolar Məğrur MƏRDİNDİR**

YENİ MÜSAVAT
N 40 (6654) 22 fevral 2017



# "Memati"nin xilaskarları və Cəbiş müəllimin qeyrətini çəkənlər

Samir SARI

**Bir bizdə deyil, dünyanın çox yerində insanlar kino aləmi ilə real həyatı qarışdırır, filmlərdə gördüklərini, romanlarda oxuduqlarını birəbir gerçəklik kimi qəbul edir, ürəklərinə salır, ciddi-ciddi reaksiya verir, bəzən hətta gedişatı dəyişmək istəyirlər.**

Məsələn, bir ara "Kurtlar vadisi" serialında rejissor ssenaridə nəzərdə tutulduğu kimi "Memati"ni "öldürüb", sıradan çıxara bilmirdi, camaat rejissorun "məkrli niyyəti"ndən öncədən xəbər tutur, etirazlarını bildirir, ssenarini dəyişdirirdilər. Elə olurdu ki, bir bölümün sonunda pis banditlər yaxşı bandit "Memati"ni güllələyib aşsüzənə döndərir, sümüklərini qırıb xıncım-xıncım edirdilər, hamı deyirdi, ta bu adam salamat qalmaz, amma xalq direşirdi, sevimli qəhrəmanının həyatını qurtarırdı. Növbəti bölümdə görürdük ki, bay, "Memati" ölməyib, sadəcə, xəstəxanadadır, həkimlər deşiklərini yamayır, qırılmış sümüklərini yığırlar.

Ancaq gün gəldi, "Memati"ni qorumaq mümkün olmadı, öldürdülər. Millət yasa qərq oldu, yığılıb onun ruhuna fatihə oxudu, ehsan verdilər. Hələ yaxşı ki, qisas məqsədilə yazıq rejissoru, prodüseri öldürmədilər.

"Möhtəşəm yüzil" serailında Qanuni Sultan Süleyman böyük oğlu Şahzadə Mustafanı boğdurduğu bölümün ertəsi günü camaat ellikcə məscidlərə axışdı, nakam şahzadəyə yas tutdular, ruhuna fatihə oxudular, sultan Süleymanı açıq şəkildə qınayanlar, Mustafanın qələmini qırmış gavur qızı Hürrəm sultanın goruna söyənlər oldu.

Oxumuş adamlar nə billah elədilər, camaatı başa sala bilmədilər ki, bu hadisələr 500 il öncə olub, ona indi üzülməyin heç kəsə faydası yoxdur. Bəlkə də camaat sultan Süleymanın niyyətini əvvəlcədən bilsəydi, serialın ssenaristi Meral Okaya, rejissorları Yağmur və Durul Taylanlara təzyiq edərək, Mustafanı ipdən xilas edəcəkdilər.

Yəni camaat o tarixi faciəni ürəyinə bu qədər dərindən salmışdı.

Bizim özümüzdə də bənzər olaylar çox olub. Məsələn, "Yeddi oğul istərəm" filmində gənc komsomolçu Cəlala, müasir dildə desək, torba tikərək, onu "Qan çanağı"na göndərən və Gəray bəy tərəfindən güllələnməsinə bais olan Kələntər obrazının mahir ifaçısı İsmayıl Osmanlı o filmdən sonra küçəyə-bayıra çıxa bilmirmiş. Mütləq kütlə içindən kimsə tapılırmış ki, ağsaqqal aktyora ilişirmiş, Cəlala qarşı niyə o cür hərəkət etməsi barədə hiddətli-hiddətli sorğu-sual edirmiş.

Deyilənə görə, 30 il əvvəl "Kişi sözü"ndə çəkilmiş Sənubər İsgəndərlidən hələ də orda-burda soruşurlar ki, Qasıma niyə ərə getməyib.

O vaxt rəhmətlik Yaşar Nuri ilə aktrisa Firəngiz Mütəllimovanın çəkildiyi "Səni axtarıram" tamaşası əslində cəmi bir bölümdən ibarət olmalı imiş. Amma bu tamaşanın televiziyada göstərilməsindən sonra xalq tamaşanın yaradıcılarına təzyiq edərək, ikinci və üçüncü bölümləri də çəkməyə vadar edib - ta o vaxta qədər ki, Gülnar nişanını qaytarıb, Elçin arvadını boşayıb. Onları evləndirəndən sonra xalq, nəhayət, sakitləşib. İndiki ssenarist və rejissorlara qalsaydı, Elçin və Gülnar hələ də evlənməzdilər, elə küsüb-barışaraq yaşayar, tamaşaçıların zəhləsini tökərdilər, nəhayət, 275-ci bölümdə serial finala gedərdi.

Xüləs, gələk mətləb üstünə. Bu baxımdan vaxtilə "Bizim Cəbiş müəllim" filmindən kəsilib çıxarılmış və hazırda ölkədə "Xəyanət epizodu" adlandırılan videokadrın yenidən gün işığına çıxmasıyla bağlı yaranmış ajiotaj tam təbiidir. Belə də olmalıydı. Biz aktyor Valeh Kərimova 25 ildir Moşu deyən camaatıq, 50 il öncənin söhbətini də xatırlaya, müzakirə və lağlağı edə, üzülə bilərik.

Amma öz yanımdan deyim ki, o epizodda xəyanət yoxdur, bir ara tərəflər xəyanətə meyllənmiş kimi görünür, amma Cəbiş müəllimin arvadı əlindəki oxlovla prosesə müdaxilə edir, daha neynəyir, orası bağlı qapı və kadr arxasında qalır.

Kinosevərlərin bu xüsusda mübahisəsi gerçək olsa da, çox gecikib. O hadisələr müasir həyatda baş versəydi və operativcəsinə seriallaşdırılsaydı, bəlkə də biz işə qarışaraq, oxlovla cəzalandırılmış şərgöz Əbülfəzin Cəbiş müəllimdən üzr istəməsini təşkil edə bilərdik. Amma gecdir. İndi başqa filmlər var. Seyrə davam.




# Ermənistana sığınan xain haqqında ilginc açıqlamalar

**Xasay Fərzulla:** "Müsavat üzvü olanda da bənzər iddialar söyləyirdi ki, partiyada talışlara qarşı ayrı-seçkilik var"

**Cəlil Baxşıyev:** "Hamımız Azərbaycan vətəndaşıyıq, özü də o, talış deyil, talış dilində bir kəlmə də bilmir"

**Ermənistandan "müvəqqəti sığınacaq" alan Azərbaycan vətəndaşı Şahin Mirzəyev ətrafında qurulmuş şou davam etdirilir. İşğalçı ölkənin təbliğat orqanları vaxtaşırı İrəvana qaçmış xain azərbaycanlının açıqlamalarına yer ayıraraq Azərbaycanda etnik zəmində təfriqə yaratmağa cəhd göstərirlər.**

Ancaq düşmən ölkənin cəhdləri əbəsdir. Əvvəla, ona görə ki, Azərbaycanda tarixən bütün millətlərin nümayəndələri rahat yaşayıblar, heç bir etnik zəmində diskriminasiyaya məruz qalmayıblar. Hətta ermənilər belə, bu gün Ermənistandakı təqiblərdən yaxa qurtarmaq üçün Azərbaycana üz tutursa, Bakıda 30 min erməni rahat yaşayırsa, düşmən ölkə hakimiyyətinin cəhdləri boşunadır. Digər tərəfdən, Ş.Mirzəyevin 92 yaşlı atası da "Yeni Müsavat"a təsdiqləyib ki, o, talış deyil, Lerikin türklər-azərbaycanlılar yaşayan Kəlvəz kəndindəndir. Kəndin icra nümayəndəsi isə deyib ki Ş.Mirzəyevin rəhmətlik anası talışların kompakt yaşadığı başqa bir kənddəndir. Ancaq bu, bir faktdır ki, yəhudiləri çıxmaq şərtilə, bütün dünyada, o cümlədən Azərbaycanda milli kimlik ata vasitəsilə müəyyən edilir. Deməli, düşmənin Ş.Mirzəyevi "talış" kimi təqdim edib talış millətindən olanların heysiyyəti ilə oynamaq cəhdi mənasızdır. Ş.Mirzəyev erməni kəşfiyyatının hazır mətnlərini oxuyub "Ermənistan və ermənilər heç vaxt talışlarla düşmən olmayıb və heç nə üstündə vuruşmurlar. Talışların ermənilərlə sərhədi yoxdur. Və bizim də onlarla böləcək heç nəyimiz yoxdur" kimi saxta fikirlər səsləndirməklə Azərbaycanda milliyyətindən asılı olmayaraq, bütün Qarabağ şəhidlərinin ruhunu təhqir etmiş olub. Azərbaycanın cənub bölgəsində yaşayanlar, Ş.Mirzəyevi şəxsən tanıyanlar da onun bu hərəkətlərini yalnız nifrətlə qarşılayıblar.

**Müsavat Partiyası Masallı rayon təşkilatının sədri Xasay Fərzulla "Yeni Müsavat"a açıqlamasında Ş.Mirzəyevi yaxşı tanıdığını dedi:** "Onunla Müsavat Partiyasının qurultayı ərəfəsində də görüşmüşdüm. Hətta qurultaydan sonra Məclisə namizədliyini vermək istəyirdi. Sonra araşdırıldı ki, o, 2013-cü ildə partiyadan məhz təxribatçı fikirlərinə görə xaric olunub. Hətta onun üzv olduğu Bakı Nizami rayon təşkilatının sədri Nizaməddin bəy də şəxsən mənim yanımda bir dəfə demişdi ki, "get burdan, sən təxribatçısan"".

**Xasay bəy Ş.Mirzəyevin talış olmadığını da vurğuladı:** "Mənim bildiyimə görə, onun atası talış deyil və azərbaycanlıların yaşadığı kənddə anadan olub. Yəqin talış dilində danışmağı da sonradan öyrənib. Görünür, bugünkü durumda ona talış dili lazım olub. Vaxtilə Ələkrəm Hümbətov da talış dilindən öz məqsədləri üçün bəhrələnmişdi. Ola bilsin, talış dili Şahin Mirzəyevə manevr etmək və öz addımına don geyindirmək üçün lazım olub. Azərbaycanda "talışlara basqı olması" barədə onun iddiaları tam əsassızdır. Hətta bu adam Müsavat Partiyasının üzvü olanda da buna bənzər iddialar söyləyirdi. Deyirdi ki, partiyada talışlara qarşı ayrı-seçkilik var. Belə çıxışlar edəndə mən qayıtdım ki, sənin başın işləyir, ya yox? Onun dedikləri tamamilə əsassızdır. Çünki cənub bölgəsində bizim partiyanın rayon təşkilatları fəaliyyət göstərir və təşkilatların tərkibində xeyli talış var".

**X.Fərzulla Ş.Mirzəyevin Ermənistana sığınmasını səbəbsiz saymır:** "Onun işğalçı ölkəyə getməsi təsadüfi deyil. O, hansısa xarici ölkə tərəfindən ələ alınıb. Əgər sosial vəziyyətinin ağırlığı ilə əlaqədar ölkəni tərk etmək istəsəydi, Avropa ölkələrinə gedərdi. Hər kəs bilir ki, Ermənistan özü də iqtisadi cəhətdən ağır durumda olan ölkədir. Sadəcə, onun Ermənistanı seçməsi Azərbaycanın imicinə zərbə vurmaq niyyəti güdür və plan erməni kəşfiyyatına və digər xarici ölkələrə məxsusdur. Onun addımları Ermənistanın maraqlarına xidmət etmək, separatizmi körükləmək, talış və türklər arasında nifaq salmaqdan ibarətdir. Bu da erməni layihəsidir, üstəlik, başqa xarici ölkələrin də marağında ola bilər. Onun fəaliyyəti talış xalqının adına ləkədir, talışların verdiyi şəhidlərin ruhuna təhqirdir".

**X.Fərzulla Ş.Mirzəyevin Ermənistandakı çıxışlarında adını çəkdiyi İsmayıl Şabanovla bağlı da ilginc məlumat verdi:** "İsmayıl Şabanov "Talış" Cəmiyyətinin sədridir. "İlana zəhər verən kərtənkələ" odur. Başqa bir separatçı Zabil Məhərrəmov var, hazırda İrəvandadır, orda "Talış TV"də veriliş aparır. O da Şabanovun yetirməsidir. Burada Rusiya faktoru var. Azərbaycan haqqında artıq-əskik sözlər çox işlədir. Bu gün Azərbaycanda talış, türk, ləzgi problemi yoxdur və bütün bu cəhdlər mənasızdır".

**Lerik Rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini Cəlil Baxşıyev isə dedi ki, əslində Ş.Mirzəyevi talışlara və ya Lerikə bağlayan hər hansı tel yoxdur:** "O, 1975-ci ildə Kəlvəzdən Bakıya köçüb. Təhsili də yoxdur, orta təhsilli adamdır. Uzun müddət Rusiyada yaşayıb. İlk evliliyi pozulandan sonra Çeçenistanda ikinci dəfə çeçen milliyyətindən olan xanımla evlənib. Birinci arvadı Lerikdən idi, gözəl də ailəsi var idi, amma atıb getmişdi. İkinci arvadını da boşayıb, bir qızı var. Qızını isə götürüb Bakıya gəlib, üçüncü dəfə burada evlənib. Adam öldürdüyünə görə Rusiyada 10 ilə yaxın həbsdə yatıb. Azərbaycanda da oğurluq üstə həbs olunub".

**İcra başçısının müavini onu da dedi ki, Lerik camaatı bu xəbərdən çox hiddətlənib:** "Hamımız Azərbaycan vətəndaşıyıq. Özü də o talış deyil, talış dilində də bir kəlmə bilmir".

❑ Cavid TURAN



# "Azadlıq" qəzetinin redaktoru Rövşən Hacıbəyli prokurorluqda dindirilib

**Fevralın 21-də "Azadlıq" qəzetinin redaktoru Rövşən Hacıbəyli Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində dindirilib. Bu haqda jurnalistin özü məlumat verib.**

R.Hacıbəylinin dediyinə görə, ona qəzetin fəaliyyəti və maliyyə məsələləri ilə bağlı ümumi suallar verilib. Fevralın 18-dən 20-nə kimi «Azadlıq» qəzetinin 6 əməkdaşı - İlham Hüseyn, Aytən Məmmədova, Elşən Şirinov, Vidadi Məmmədov, Xalid Qarayev və Fizzə Heydərova prokurorluqda müstəntiqin suallarını cavablandırmalı olmuşdu. «Azadlıq» qəzetinin əməkdaşları qəzetin kommersiya direktoru Faiq Əmirlinin həbsindən sonra istintaqa cəlb ediliblər. Onlar bundan əvvəl də F.Əmirlinin cinayət işi ilə bağlı dindiriliblər. (AzadlıqRadiosu)

# "Humanistləşdirmə cəzasızlıq mühitinin yaradılması demək deyil"

## İlham Rəhimov: "İstintaq müddətində həbs tədbirinə üstünlük verməsi məhkəmə-hüquq sisteminin böyük yanlışıdır"

**Hüquq elmləri doktoru, professor İlham Rəhimov Azərbaycan Respublikasında cəzaların humanistləşdirilməsi ilə bağlı prezident sərəncamı ilə bağlı "Yeni Müsavat" qəzetinə müsahibə verib. Həmin müsahibəni təqdim edirik:**

*(əvvəli ötən sayımızda)*

***- Bir sıra ekspertlər iddia edir ki, konkret cinayətlər üzrə cəzaların humanistləşdirilməsi həmin cinayətlərin statistikasında azalmaya səbəb olmur. Sadə desək, cəza ağır olmadığı üçün insanlar ondan çəkinmir. ABŞ-ın bir sıra ştatlarında ölüm hökmünün məhz bu faktora görə saxlandığı bəllidir. Sizin Azərbaycanla bağlı proqnozlarınız necədir? Yaxın müddət üçün statistikada hansı dəyişiklikləri gözləyirsiniz?***

- İllər öncə belə araşdırmalarla yalnız kriminalistlər məşğul olurdu. Sonradan məsələyə yeni baxış ortaya qoyuldu və indi bu araşdırmalara sosioloqlar da cəlb edilib. Həmin araşdırmalar zamanı ortaya çıxan nəticə bundan ibarətdir ki, həyat səviyyəsi, eləcə də təhsil və mədəni səviyyənin inkişafı, məşğulluğun artması ağır cinayətlərin azalmasına çox müsbət təsir edir. Sivil, savadlı cəmiyyətlərdə fərdlərarası münasibətlərdə aqressiya xeyli azalır, bu isə kriminogen duruma müsbət təsir göstərir. ABŞ praktikasından görürük ki, bəzi ştatlar ölüm cəzasını saxlayır. Müqayisə üçün qeyd edək ki, afroamerikalılar ABŞ əhalisinin 12 faizini təşkil etsə də, cinayət göstəricilərində onların faizi 70-ə yaxındır. Bu onu göstərir ki, kriminogen vəziyyət əhalinin sosial rifahı ilə sıx bağlıdır.

Gəlirik yenə bayaq dediyim məsələyə - ağır cəza hər zaman öz çəkindiricilik funksiyasını qoruyur. Bəzi araşdırmalar göstərir ki, 1 ölüm hökmünün icrası 18 nəfəri qəsdən adam öldürmədən çəkindirir. Ancaq tendensiyanı bütün ölkələrdə müşahidə etmək mümkün deyil. Çünki hər ölkədə mentallıq fərqlidir. Cinayət statistikasında ən axırıncı yerlərdən birini tutan Yaponiya ölüm hökmünü saxlayıb, baxmayaraq ki, Yaponiyada qəsdən adam öldürmənin faizi cüzidir. Səbəb yaponların milli ənənələrində ölüm cəzasının olmasıdır. Eləcə də bir sıra ərəb ölkələrində cinayət faizi çox aşağıdır. Ancaq onlar ölüm hökmünü ləğv etmirlər. Çünki belə cəza şəriət qanunlarında var. Göründüyü kimi, ölüm hökmünün saxlanmasının cinayətkarlığa konkret təsiri ilə bağlı hər hansı ümumi mülahizələr irəli sürmək mümkün deyil. Mentalitet, zaman içərisindəki ictimai proseslər buna çox ciddi təsir edən faktorlardandır.

***- Sərəncamda xüsusi diqqət ayrılan məsələlərdən biri də istintaq müddətində həbs tədbirinin seçilməsidir. Sizin məsələyə baxışınız necədir? Konstitusiyaya görə, hər bir kəsin ədalətli mühakimə hüququ var. Hələlik Azərbaycanda məhkəmələrin işini qənaətbəxş saymaq olmaz. Yeni sərəncamla məhkəmələrin üzərinə düşən əsas vəzifələr, sizcə, nədən ibarətdir?***

- Mənə elə gəlir, prezident sərəncamının ən həlledici məqamı məhz həbs-qətimkan tədbirinin seçilməsi ilə bağlıdır. Aydın görünür ki, Azərbaycanda bir çox hüquqazidd hərəkətlər üzrə istintaq müddətində həbs tədbirinin seçilməsi tendensiyası dəyişdirilməsi tələb kimi gündəmə gəlməkdədir. Açığı, müxtəlif hallarda şübhəli şəxslərə bağlı yeri gəldi-gəlmədi həbs tədbirinin seçilməsi, bəzən ikili standartların tətbiq olunması mənə hər zaman məntiqsiz görünüb. İstintaq gedən vaxt həbs-qətimkan tədbiri ağır və xüsusi ağır cinayətdə şübhəli şəxs barəsində istisna tədbir kimi tətbiq edilməlidir. Yetərincə faktlar göstərmək olar ki, xırda hadisələrə, ehtiyatsızlıq üzündən baş verən cinayətə görə, o cümlədən qadınların törətdiyi cinayətlərdə həbs tədbiri seçilir, halbuki buna heç bir zərurət yoxdur. Axı həbs tədbirinin seçilməsi məhkəmələri məhz azadlıqdan məhrumetmə cəzası verməyə təşviq edir. Söhbət insan taleyindən gedir. Bu məsələ maksimum diqqət, ədalət prinsipinə qeyd-şərtsiz əməl edilməsini tələb edir. Elə hallar da olur ki, ictimai təhlükəli cinayət törətdiyi aşkar olan şəxsə şərti məhkumetmə cəzası verilir. Sözügedən sərəncamla prezident bu məqama xüsusi diqqət ayırıb. Bu da onunla bağlıdır ki, Azərbaycanda azadlıqdan məhrumetmə cəzasının faizi həddən artıq yüksəkdir. Cinayət törədənlərin orta hesabla 16-20 faizi cərimə, 10 faizi şərti məhkumetmə, 42-45 faizi isə azadlıqdan məhrumetmə cəzası alır. Rusiyada isə bu rəqəm (azadlıqdan məhrumetmə cəzası) 30-32 faiz təşkil edir. Müqayisə üçün deyim ki, 2007-ci ildə Almaniyada 575152 cinayətkarın işi məhkəməyə göndərilib, 128046 nəfərə azadlıqdan məhrumetmə cəzası kəsilib, bunun yalnız 41324-ü, yəni 7,2 faizi real, qalanı isə şərtidir. Heç şübhəsiz, cinayət varsa, cəza olmalıdır. Humanistləşdirmə cəzasızlıq mühitinin yaradılması demək deyil. Ancaq qanunu pozanların yarısının cəzaçəkmə müəssisələrinə göndərilməsi də çıxış yolu deyil. Bu, eyni zamanda dövlət üçün nəhəng xərcdir. İldə yalnız məhkumlara dövlət büdcəsindən 80 milyon vəsait xərclənir. Yalnız məhbuslara... Buraya cəzaçəkmə müəssisələrinin saxlanması və digər xərcləri də əlavə etdikdə dövlət büdcəsinə çox böyük yük yarandığı ortaya çıxar. Ağır olmayan bir sıra cinayətlərlə bağlı Avropa təcrübəsindən yararlanmaq olar. Avropa çoxdan bir sıra cinayətlər üzrə azadlıqdan məhrumetmə cəzasından imtina edib. Xüsusən iqtisadi cinayətlərdə. İqtisadi xarakterli cinayətləri törədənlər məhbəsə göndərilmir və dövlət büdcəsi bu faktdan qazanır. Belə ki, dövlət onların saxlanmasına vəsait xərcləmək əvəzinə, hüquqazidd hərəkətlər törətmiş şəxslər böyük məbləğdə cərimələr ödəyir. Effektivlik də göz qabağındadır. İldən-ilə bu statistikada azalma müşahidə olunur. Azərbaycan da bu yolla getməlidir. Nəzərə alınmalıdır ki, belə şəxslər cəmiyyət üçün xüsusi təhlükə yaratmır və onların azadlıqdan məhrum edilməsinə ehtiyac qalmır. Söhbət islahdan gedirsə, onları ciddi cərimə ilə bəlkə də daha yaxşı islah etmək olar.



**"Sivil, savadlı cəmiyyətlərdə fərdlərarası münasibətlərdə aqressiya xeyli azalır, bu isə kriminogen duruma müsbət təsir göstərir"**

***- Azərbaycan qanunvericiliyində alternativ cəzalar da var. Sizcə, hansı səbəbdən onlardan belə az istifadə edilir?***

- Söyləmək çətindir. Görünür, nə zamansa sərt tədbirlərin yüksək nəticə verəcəyi düşüncəsi ilə ev həbsi, cərimələr, ictimai işə cəlbetmə, məcburi əməyə cəlbetmə arxa plana keçib və ortaya indiki arzu olunmayan mənzərə çıxıb. Cinayətkarlıqla mübarizədə ən önəmli məqam cinayətkarlıq üçün münbit mühitə qarşı ardıcıl və kəskin mübarizədir. İslam tarixindəki bir fakt mənim hər zaman diqqətimi çəkib. Həzrət Ömərin xəlifəliyi dönəmində quraqlıq olduğu üçün xırda oğurluğun sayı artıb. Aydındır ki, ac qalan əhali çıxış yolu kimi oğurluğa əl atacaq. Şəriət qanunları isə oğrunun əlinin kəsilməsini, bir sıra hallarda edamını tələb edir. Həzrət Ömərə şəriət məhkəmələrinə oğurluq cinayətlərinin çoxalması ilə bağlı xəbər veriləndə o, bir müddət düşünür və qərar verir ki, quraqlıq dönəmində ərzaq oğurluğu üçün cəza tətbiqi dayandırılsın. Çünki o dərk edir ki, insanlar bunu çıxılmazlıqdan edib və əhalinin rifahı üçün cavabdehlərdən biri də o özüdür. Beləliklə, təbii mühit bərpa olunana qədər Xilafətdə xırda oğurluq cinayət sayılmır. Demək istədiyim odur ki, bu gün Azərbaycanda oğurluq halları çoxalıbsa, məhkəmələr məsələyə xüsusi həssaslıqla yanaşmalıdırlar. Çünki iqtisadi çətinliklərin, işsizliyin olduğu istənilən cəmiyyətdə əmlak oğurluğu statistikası yüksəlir və belə işlərə baxıldıqda maksimum obyektivlik vacibdir. Durumu dəyişmək üçün xırda cinayət edənlərə ağır cəzalar vermək yox, cəza mühitini aradan qaldırmaq lazımdır. Diqqət yetirsək görərik ki, son illər iqtisadi çətinliklərlə əlaqədar oğurluq hadisələri, soyğunçuluq, quldurluq və dələduzluqla bağlı cinayətlərin statistikasında əvvəlki illərlə müqayisədə artım müşahidə olunur.

Məni narahat edən məsələlərdən biri də medianın cinayət və cəza məsələsində tutduğu mövqedir. Bəzən çox yanlış tendensiya müşahidə olunur - mediada "qanuni oğrular"ın az qala qəhrəman obrazı yaradılır. Başa düşmək lazımdır ki, bu şəxslər cinayətkardır. Bizim məqsədimiz sivil, qanunların ali olduğu cəmiyyət yaratmaqdırsa, qanunları pozanların təbliğinə son qoyulmalıdır. Başqa bir məqam penitensiar sistemdəki islahatların təbliğidir. Çox müsbət haldır ki, ölkədə məhbusların saxlanma şəraiti yaxşılaşdırılır. Ancaq media bu təbliğatda tərif tonunu elə yüksək həddə müəyyən edir ki, sanki cinayət törətməyin təbliğatı gedir. Belə həssas məqamlarla bağlı diqqətli olmaq lazımdır. Göründüyü kimi, məsələ həddən artıq çoxşaxəlidir və maksimum duyarlılıq, konkret məsələlərin qoyuluşu zamanı incə xətlərin gözlənilməsini tələb edir. Ümid edək ki, Azərbaycanın məhkəmə-hüquq sistemi sərəncamda qoyulan məqsəd və vəzifələrin həyata keçirilməsi üçün maksimum əmək sərf edəcək.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 40 (6654) 22 fevral 2017



# Gözü çıxan qardaşlar

Zamin HACI
zaminhaci@gmail.com

"Hər insanın içində iki qurd daim boğuşmaqdadır: qəddar qurd və xeyirxah qurd. Hansı qurdu yemləsən, o da qalib gələcək"
*(Hindu ata sözü)*

**Yardımlıda iki nəfər ərzaq dükanını yarıblar, ümumilikdə 500 manatlıq ziyan vurublar. Polis bunları tutub, videosu çəkilib, internetə qoyulub. Mən orda oğurlanan pulun miqdarını asanlıqla hesabladım: pullar masanın üstünə sərilmişdi və cəmi 105 manat idi. Deməli, oğurluğun qalan böyük hissəsi ərzaqla olmuşdur. "Böyük" demək də yekə çıxır, 395 manatlıq ərzaq edirdi. İki oğru arasında bölsək, bədbəxtin hərəsinə 200 manatlıq ərzaq düşürdü. Polis müstəntiqi də Kennedinin qatilini tutmuş kimi fəxr və farmazonluqla bəyan etdi ki, bunların cinayəti sübut olunsa, hərəsini 3 ildən 7 iləcən cəza gözləyir.**

Bizim türmələrdə bir dustağın saxlanması xərcləri deyilənə görə, 18 manat 50 qəpikdir. *(Rəsmi açıqlama yoxdur, Beynəlxalq Bankın şefi, hazırda dustaq həyatı yaşayan Cahangir Hacıyevin 2016-cı ildəki xəbərindən götürmüşəm - Z.H.).* Bunu minimum 3 il üçün hesablasaq, 20 min manatdan çox edir. (3x365=1095x18.50=20.257,5).

Demək, dövlət büdcəsindən bu acları saxlamağa 500 manatdan 500 dəfə çox vəsait xərclənəcək. Əcəb ölkədir. Korrupsioner sistem balaca oğruları tutur ki, əl-ayağa dolaşmasınlar, üstəlik, bunu dövlət büdcəsinin - yəni sənin, mənim, bizim hesabımıza edir. Cəza cinayətə adekvat deyil, profilaktik tədbirlər də sıfırdır.

Dünən "şeytanı aşkar edən" daha bir "detal" var idi. Bakının rayonlarından birində kişi keçmiş arvadının başqasına ərə getməsini önləmək üçün sifarişli cinayət törədib. Cani tutub, ona sulfat turşusu verib ki, qadının üzünə atsın. Müsəlman dünyasında geniş yayılmış üsuldur. Düzdür, Pakistanda, Əfqanıstanda bunu daha çox məktəbli qızlara qarşı edirlər ki, onlar oxuyub adam olmasın, sabah 50 yaşlı qocalara ərə verilməyə üsyan etməsinlər, heyvan kimi ora-bura sürülsünlər. Bizim camaatın qadınlara turşu atması daha əndirəbadidir: deyirlər ki, istəmirik qadınımız başqa kişiyə nəsib olsun, sifətini korlasaq heç kim yaxın durmaz. Beləcə, heyvani bir hərəkətdir, bilmirsən nə deyəsən. Özü qadının könlünü alıb, sevərək birgə yaşaya bilmir, sifətini məhv edir.

Ancaq xəbərin əsas dəhşətlərindən biri sifarişçinin caniyə ödəyəcəyi məbləğin miqdarı idi. Açığı, mən Azərbaycanda insan həyatının, insan simasının bu qədər ucuz dəyərləndirilməsindən şoka düşdüm: 2 dönər və 1 araq. Yanlış oxumadınız. "Keçmiş ər" adlanan o əclaf tip cinayətkara iki dönər və bir araq boyun olubmuş ki, al bu "kislotanı", at arvadın sifətinə.

Əgər bir millətin qadınının sifətini korlamağın dəyəri iki dönər və bir araqdırsa, o millətin ümumiyyətlə sifəti varmı? Biz nə üçün bu vəziyyətə gəlib düşdük?

MTN cinayətində zərərçəkən biznesmenlərdən biri fevralda məhkəmədə ifadə verəndə ortaya maraqlı söhbət çıxmışdı. Çekistlər ondan rüşvət istəyiblər, deyiblər dükandan çanta al, içinə göyərti yığıb bizə gətir. Bu da altdan rüşvəti qoyub, üstdən göyərtiləri, aparıb MTN-ə. Buna hamı gülüb, çünki sən demə, çekistlər idarənin adına uyğun şifrəli sifariş veribmişlər, göyərti qəti lazım deyilmiş, orda dolları yaşılımtıl rənginə görə "göyərti" adlandırırmışlar.

Yaxud bir QHT sədrini tutub 12 il həbs verdilər. Düzü, onun başqa "cinayətləri" el-aləmə bəlli deyildir, ancaq rəsmi ittihamdakı "ölkəyə qanunsuz olaraq kameralı eynək gətirmək" söhbəti dəhşətli idi. Gizli çəkiliş, dinləmə nə böyük cinayət imiş ki, buna görə adama 12 il versinlər? Bəlkə bu cəzanın motivləri elə "kamera", "eynək" sözlərində gizlənir? O biri camaata da dərs verirlər ki, baxmaq olmaz, görmək olmaz, ancaq gözü çıxan qardaşınıza baxın! Dünyanın bir çox ölkəsində heç adam öldürənə belə ağır cəza kəsmirlər.

# İranda vəziyyət qarışır: "İran baharı", yoxsa...

## Qonşu ölkənin ərəblər yaşayan bölgəsində üsyan davam edir; **politoloq:** "Ola bilsin, burdakı ərəblərin fəallaşmasının arxasında xarici güclər dayanır"

**İranın strateji olaraq ən əhəmiyyətli şəhərlərindən sayılan və böyük neft yataqlarının olduğu Ahvaz şəhərində İran rejiminə qarşı etiraz aksiyaları yeddinci gününü başa vurub. Bununla bağlı publika.az saytının yaydığı xəbərdə deyilir ki, etiraz aksiyalarının sonuncu günündə İran İslam İnqilabı Keşikçilər Korpusuna (SEPAH) aid bir qərargah yandırılıb, onlarla inqilab gözətçisi insanlar tərəfindən döyülüb.**



Etiraz aksiyalarının genişlənməsi ilə əlaqədar bölgədə internet xətti kəsilib və valilik qarşısında aksiyalar qadağan edilib. Arabi21.com xəbər saytı təhlükəsizlik güclərinin aksiyalara müdaxilə nəticəsində Həsən əl-Bogbiş adlı bir nümayişçinin həyatını itirdiyini yazıb. İnqilab gözətçilərinin döyülməsindən sonra İran prezidenti Həsən Ruhani Ahvaz valisi və daxili işlər naziri ilə təcili toplantı keçirib.

Məlumata görə, İranın dini lideri Əli Xamneyi hökuməti təcili olaraq bölgədə keçirilən aksiyaların genişlənməməsi üçün tədbirlər görməyə çağırıb. İran İslam İnqilabı Keşikçilər Korpusu təhlükəsizlik məntəqələrinə yaxınlaşanların həbs olunacağını açıqlayıb. İranlı səlahiyyətlilər getdikcə genişlənən aksiyaların icazəsiz olduğunu bildirirlər. İran dövlət televiziyası isə səssizliyini qoruyub saxlayır.

Ahvaz şəhərinin daxil olduğu Xuzestan vilayəti İranın cənubi-qərbində yerləşir. Vilayət zəngin neft yataqları ilə strateji əhəmiyyətə sahibdir. Ahvaz Marundan sonra ölkənin ən böyük sahil nefti yatağı kimi tanınır. Xuzestan vilayəti İranın nüvə enerji mərkəzi olan Buşehrə yaxınlığı ilə də diqqət çəkir.

Ötən ay Ahvazda iki neft boru xəttində partlayış törədilib. Partlayışa görə məsuliyyəti "Ahvazın Azadlığı üçün Ərəb Mübarizə Hərəkatı" adlı qrup üzərinə götürüb. Qrup 2017-ci ildə əvvəlki illərlə müqayisədə daha aktiv olacağını açıqlayıb. Xuzestan vilayətindən 500 min -1 milyon ərəb mənşəli insanın yaşadığı bildirilir.

Qeyd edək ki, son qum fırtınasından sonra bölgədə elektrik və su nəqlində ciddi fasilələr yaranıb. Bu isə yerli əhalinin etirazına səbəb olub. Dünya Səhiyyə Təşkilatının 2015-ci ildə açıqladığı məlumata görə, Ahvaz dünyada ən çirkli havası olan şəhərdir. Bir milyon əhalisi olan şəhərin ətrafındakı neft müəssisələrinin yaratdığı çirkliliyə səlahiyyətlilərin laqeyd münasibəti xalqı partlama nöqtəsinə gətirib.

**Bu arada İranın qonşu ölkələr, o cümlədən Türkiyə ilə də münasibətlərində gərginlik müşahidə olunur. Türkiyə Xarici İşlər Nazirliyinin sözçüsü Hüseyn Müftüoğlu fevralın 20-də jurnalistlərə açıqlamasında iranlı həmkarı Bəhram Qasiminin həmin gün Türkiyəyə qarşı səsləndirdiyi bəyanatına sərt reaksiya verib. İranlı həmkarının jurnalistlərlə görüşündə işlətdiyi "İranın Türkiyə qarşısında dözümünün həddi var" cümləsinə toxunan Hüseyn Müftüoğlu bildirib ki, İran konstruktiv addımlar atmalı, onu tənqid edən ölkələri ittiham etmək əvəzinə özünün bölgəsəl siyasətinə yenidən baxmalıdır:** "Bölgədəki böhranlar səbəbi ilə ölkəsinə pənah gətirən insanları belə savaş meydanlarına göndərməkdən çəkinməyən bir ölkənin regiondakı gərginliyin və sabitsizliyin səbəbkarı olaraq başqalarını ittiham etməsini qəbul etmək və anlamaq mümkün deyil".







**Qeyd edək ki, İran Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasimi fevralın 20-də jurnalistlərə açıqlamasında Türkiyəyə qarşı sərt bəyanatlar səsləndirib:** "Türkiyədəki uğursuz hərbi çevrilişdən sonra İran ən həssas bir zamanda bu ölkəyə dəstək verdi. Lakin bilmirik ki, onların sərgilədiyi bəzi mövqelərə haqq qazandırmalıyıq, yoxsa ki, yox. Hazırda Türkiyədə nigaranlığa səbəb olan qeyri-sabit bir vəziyyət hakimdir. Bu ölkənin bəzi siyasətçiləri qabaqdan gəlmişlik edərək əsəbiyyət üzündən bəzi rəftarlar edir, bununla da öz daxili və xarici problemlərini ört-basdır etməyə çalışırlar. Ümid edirəm ki, Türkiyə rəsmiləri bundan sonra İranla bağlı səsləndirəcəkləri bəyanatlarda daha zəkavətlə davranacaq, bizi onlara cavab verməyə məcbur etməyəcəklər. Türkiyə qarşısında biz dözümlüyük və səbir edəcəyik. Lakin bu dözümün də bir həddi var".

Fevralın 20-də isə Türkiyənin Tehrandakı səfiri Rza Hakan Tekin İranın Xarici İşlər Nazirliyinə çağırılıb.İran xarici işlər nazirinin Asiya və Sakit Okean üzrə müavini İbrahim Rəhimpur tərəfindən nazirliyə çağırılan Türkiyə səfirinə bu ölkə rəsmilərinin son günlər İranın bölgədəki rolu ilə bağlı səsləndirdiyi bəyanatlara etiraz bildirilib.

Son zamanlar İrana qarşı koalisiyanın yaranması da diqqət çəkir. ABŞ-ın rəhbərlik etdiyi koalisiyada ərəb dövlətləri üstünlük təşkil edir. İrandakı üsyanın məhz ərəblərin yaşadığı bölgədə başlaması da şübhəli görünür. Bəzi müşahidəçilər "İran baharı"nın başladığı ehtimalını irəli sürür.

**Politoloq Elxan Şahinoğlu isə "Yeni Müsavat"a açıqlamasında hələlik belə qənaətə gəlməyin tez olduğunu vurğuladı:** "Biz tələsə bilərik. Hər dəfə İranda oxşar hadisələr başlayanda deyirik ki, İranda növbəti inqilab başlayır. Ona görə də prosesləri bir qədər izləmək lazımdır. Ancaq o da ola bilər ki, İrandakı ərəblərin fəallaşmasının arxasında xarici güclər dayanır. İranda vəziyyətin ağırlaşdığı göz qabağındadır. Ancaq İranın mühafizəkar qanadı da həmişəki kimi güclüdür, onlar çalışacaqlar ki, növbəti fəallığı da yatırsınlar"

**E.Şahinoğlu qonşu ölkənin daxilində proseslərin sürətləndiyini də təsdiqlədi:** "İran əhalisinin bir qismi islahatların dərinləşdirilməsini istəyir, mühafizəkarlar isə nəzarəti əldən vermək istəmirlər. Ancaq İranda iqtisadi və sosial vəziyyət də ağırdır. Bu mənada İranın çətinlikləri artır. Bu biri tərəfdən də İranda yaşayan azərbaycanlıların tələblərini artıq İran parlamentində gündəmə gətirməyə başlayıblar. İran tarixində parlamentdə Azərbaycan dilində şeir deyilməsi faktını xatırlamıram, ancaq indi onu da deyirlər, özü də şeirin müəllifi də Arazın bu tayındandır. Bu ərəfədə ABŞ-la İsrailin İran hakimiyyətini sərt tənqid atəşinə tutur. Əlbəttə, Amerika və İsrail İrana qarşı hərbi əməliyyata başlayan deyillər".

**Ancaq politoloq hesab edir ki, İran hakimiyyətinin tənqidi artdıqca bölgədə vəziyyət gərginləşə bilər:** "İran yenidən qonşularında "xain" axtarışına çıxacaq. Tehran rəsmiləri artıq Türkiyə prezident Rəcəb Təyyub Ərdoğanı da hədələyirlər. Görünür, İran hakimiyyəti xaricdə ümumi düşmən tapmaqla ölkə əhalisinin diqqətini daxili problemlərdən yayındırmaq istəyir".

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 40 (6654) 22 fevral 2017

# Dövlət başçısı çoxdan gözlənilən sərəncamı imzaladı

**Fevralın 21-də prezident İlham Əliyev Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, YAP sədrinin müavini, ölkənin birinci xanımı Mehriban Əliyevanın 1-ci vitse-prezidenti təyin edilməsi barədə sərəncam imzalayıb.**




# 1-ci vitse-prezident Mehriban Əliyeva vəzifəsinə başladı: "Bacaracağam..."

## Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi və Mehriban Əliyeva rəsmən iqtidar komandasının ikinci şəxsi oldu; "Mən bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm", deyən 1-ci vitse-prezident hansı səlahiyyətlərə malik olacaq?

### Gözlənilən təyinat

**Elə həmin gün prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. AZƏRTAC xəbər verib ki, iclasda prezident İ.Əliyev M.Əliyevanı təqdim edib. Dövlət başçısı iclasda deyib ki, M.Əliyeva uzun illərdir ki, ölkənin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır:** "Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Mehriban Əliyeva 2005-ci ildən bəri Mili Məclisin deputatıdır. Deputat kimi çox böyük işlər görüb. Təmsil etdiyi dairənin sosial-ictimai problemlərinin həllində böyük addımlar atıb, seçiciləri ilə daim təmasdadır. Deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Fəaliyyəti nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb. Mehriban Əliyeva 2004-cü ildən indiyə kimi Heydər Əliyev Fondunun prezidentidir. Fond onun rəhbərliyi altında nəinki Azərbaycanın, eləcə də regionun ən böyük ictimai təşkilatına çevrilib. Çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilib. Fondun təşəbbüsü ilə bir sıra önəmli layihələrə imza atılıb. Mehriban Əliyevanın beynəlxalq aləmdə çox böyük nüfuzu var. UNESCO və İSESCO-nun xoşməramlı səfiridir. İkinci elə bir şəxsiyyət yoxdur ki, iki belə mötəbər təşkilatın üzvü olsun". **Prezident deyib ki, M.Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial və xeyirxah bir insandır:** "Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Bu gün Mehriban xanımın həyatında yeni dövr başlayır".

**M.Əliyeva göstərilən etimada görə minnətdarlıq edib:** "Mən bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, sizin və bütün mənə inanan insanların etimadını doğrultmağı bacaracağam".

### 1-ci vitse-prezidentin hansı səlahiyyətləri olacaq?

Qeyd edək ki, 26 sentyabr 2016-cı ildə keçirilən referendumda konstitusiyaya edilən əlavə və dəyişikliklərə əsasən, Azərbaycanın birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir. Birinci vitse-prezident və onun ailəsi dövlət hesabına təmin edilir. Birinci vitse-prezidentin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir. Azərbaycan Respublikasının Prezidenti vaxtından əvvəl vəzifədən getdikdə 60 gün müddətində növbədənkənar prezidenti seçkiləri keçirilir və bu halda yeni prezident seçilənədək Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini birinci vitse-prezident icra edir. Bu müddət ərzində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən birinci vitse-prezident istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi ardıcıllıqla Azərbaycan Respublikasının vitse-prezidenti birinci vitse-prezident statusu almış olur və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edir. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikasının vitse-prezidentinin şəxsiyyəti toxunulmazdır. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanma hallarından başqa tutula, cinayət məsuliyyətinə cəlb edilə, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə, axtarışa məruz qala və şəxsi müayinə edilə bilməz. Azərbaycan Respublikasının vitse-prezidentinin toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən, Azərbaycan Respublikasının Prezidenti tərəfindən xitam verilə bilər.

### Reaksiyalar

**M.Əliyevanın təyinatına reaksiyalara gəlincə, siyasi ekspertlər bildirir ki, belə bir təyinatın olacağı gözlənilən idi. Məsələn, siyasi ekspert Elxan Şahinoğlu bildirdi ki, Mehriban Əliyeva Heydər Əliyev Fonduna rəhbərlik etdiyi müddətdə dövlət işində xeyli təcrübə qazanıb. Mehriban Əliyeva ölkə daxilindəki proseslərin bilavasitə iştirakçısıdır:** "Doğrudur, Mehriban Əliyeva bu günə qədər daha çox humanitar sahədəki fəaliyyətinə görə məşhurdur, bu sıraya insanların səhiyyə problemlərinin həllini, mədəniyyət və idman tədbirlərinin keçirilməsi, əfv fərmanlarının verilməsi və digər məsələlər aiddir. İndi isə Mehriban Əliyevanın fəaliyyət arenası genişlənəcək.

Mehriban Əliyevanın birinci vitse-prezident təyinatında iki əsas səbəb mühüm rol oynaya bilər.

Birinci səbəb odur ki, Mehriban Əliyevanın birinci vitse-prezidentliyi hakimiyyət içindəki bütün fiqurlar tərəfindən müsbət qarşılanacaq. Bu təyinat İlham Əliyev-Mehriban Əliyeva tandeminin rəsmiləşdirilməsi kimi qəbul olunacaq.

İkinci səbəb isə odur ki, böyük ehtimalla dövlət başçısı artıq indidən gələcək varisi haqqında düşünür. Məsələ burasındadır ki, Mehriban Əliyeva hakimiyyət içində bəlkə də yeganə şəxsdir ki, varis planına uyğun gəlir. Prezident İlham Əliyevin Mehriban Əliyevanı birinci vitse-prezident təyin etməsi böyük ehtimalla gələcək prezidentin kimliyini də müəyyənləşdirdi.

Mehriban Əliyeva ictimaiyyət arasında populyardır. Ancaq bundan sonra birinci vitse-prezident müxtəlif istiqamətlərdən tənqidlərə də hazır olmalıdır və həmin tənqidlərə əsaslandırılmış cavablar verməк məcburiyyətindədir. Digər mühüm məsələ prezidentin birinci-vitse prezidentə hansı səlahiyyətləri etibar edəcəyidir".

**Ekspertin fikrincə, bunlardan biri səhiyyə sahəsindəki islahatların sürətləndirilməsi ola bilər:** "Azərbaycan vətəndaşlarının ən çox əziyyət çəkdiyi və şikayətləndiyi sahələrdən biridir səhiyyə. Mehriban Əliyeva həm bu sahədə korrupsiyanın ortadan qaldırılmasına, həm xidmətin keyfiyyətinin artırılmasına, həm də yaxın müddətdə bütün vətəndaşların icbari tibbi sığortasına nail olmalıdır. Dövlət başçısı başqa sahələrdə islahatların sürətləndirilməsini də birinci-vitse-prezidentə həvalə edə bilər. Mehriban Əliyevanın beynəlxalq aləmlə əməkdaşlıqda da lazımi təcrübəsi var. Onu dünyada prezidentdən az tanımırlar. Heydər Əliyev Fondunun rəhbəri kimi Mehriban Əliyevanın bir sıra xarici ölkələrdə həyata keçirdiyi humanitar aksiyalar, zəlzələdən əziyyət çəkən Pakistanda məktəblərin tikintisi və həmin məktəblərin texniki avadanlıqla təchizi, Fransa və Vatikanda muzeylərin təmiri və s. addımları onu beynəlxalq arenada tanıtdırıb. Ona görə də birinci vitse-prezident olaraq Mehriban Əliyevanın dünya liderləri ilə təmas qurması, ikitərəfli əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparması ona çətin olmayacaq".

**Prezident Administrasiyası rəhbərinin müavini, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov isə özünün facebook səhifəsində yazıb ki, ötən il keçirilən referendumun nəticələrinə görə təsis edilən birinci vitse-prezident vəzifəsində, heç şübhəsiz, hamı Mehriban Əliyevanı görürdü:** "Əminəm ki, Mehriban xanım bu şərəfli və məsuliyyətli vəzifədə yeni-yeni uğurlara və nailiyyətlərə imza atacaq".

**Deputat Cavid Qurbanov isə gününsesi.info-ya deyib ki, Mehriban xanımın birinci vitse-prezident təyin olunması sosial sifariş olduğundan gözlənilən idi:** "Azərbaycan prezidenti öz qərarlarında və seçimlərində hər zaman dövlətin, millətin gələcəyini, çıxarlarını düşünür. Bu baxımdan, Mehriban xanım Əliyevanın bu posta təyinatından məmnunam. Ölkə rəhbərinin bu təyinatı həm də sadə insanların ürəyincə oldu. Mehriban xanım sadə insanların ümid yeri olub. Mən deyərdim ki, o, əksər vaxtlar Nazirlər Kabinetinin işini üzərinə götürüb. Bəzən hansısa probleminə görə aidiyyəti qurumlar qapısında qalan insan köməkliyi ondan görüb. O, birinci vitse-prezident kimi görəcəyi işləri indiyədək də görürdü. Sadəcə, onun bu statusunu cənab prezident rəsmiləşdirdi".

**C.Qurbanovun sözlərinə görə, Mehriban Əliyevanın fəaliyyəti təkcə ölkə hüdudları ilə məhdudlaşmayıb:** "O, Azərbaycanın, Qarabağın həqiqətlərini dünya çapına çıxardı. Mədəniyyətimizin, musiqimizin təbliği ilə Azərbaycanı dünyada tanıtdı. Məhz Heydər Əliyev Fondunun fəaliyyəti nəticəsində dünyada "Xocalıya ədalət" anlayışı formalaşdı".

**C.Qurbanov M.Əliyevanın qanunverici orqandakı fəaliyyətinin də cəlbedici olduğunu deyib:** "Onun təşəbbüsü ilə Azərbaycanda bir neçə dəfə amnistiya aktı həyata keçirilib. On minlərlə insan həbsxanadan ailəsinə qovuşub. Azərbaycanın qanunvericilik bazasının formalaşmasında özünün töhfəsini verib. Bu baxımdan, hesab edirəm ki, bu təyinat milli və dövlətçilik maraqlarımız baxımından mühüm əhəmiyyət kəsb edir. Biz yaxın zamanlarda bunun ölkə həyatında müsbət nəticəsini də görəcəyik".

**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə modern.az deyib ki, Mehriban xanım uzun müddətdir Azərbaycanın maraqlarını dünyanın bir çox ölkələrində təmsil edib, həm də Milli Məclisin deputatı kimi, UNESCO-nun səfiri kimi bunun şahidi olmuşuq:** "O cümlədən mötəbər tədbirlərdə yaranan komitələrin rəhbəri olub. Azərbaycan mədəniyyətinin tanınmasında, Azərbaycan xalqının maraqlarının müdafiə olunmasında xüsusi xidmətlər göstərib, Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı bütün dünya ölkələrində maraqlarımızı təmsil edib. Mehriban xanımın birinci vitse-prezident təyin olunması çox yerində və zəruri olan bir addımdır".

**Deputat Vahid Əhmədov da sərəncamı yüksək qiymətləndirib. O qeyd etdi ki, Mehriban xanım Əliyeva istər Azərbaycan ictimai-siyasi həyatında, istərsə də xaricdə kifayət qədər tanınmış bir siyasətçidir, kifayət qədər təcrübəli şəxsdir. Azərbaycanın daxili və xarici siyasətini dünyada tanıtdıran, təbliğ edən millət vəkilidir:** "Onun birinci vitse-prezident təyin olunması Azərbaycanın ictimai-siyasi həyatında da çox önəmli bir hadisədir. Hesab edirəm ki, Azərbaycanın dövlət başçısına həm yaxından kömək edəcək, həm də Azərbaycanın daxili və xarici siyasətinin inkişaf etdirilməsində yardımçı olacaq. Bundan sonra Azərbaycanda, ümumiyyətlə, vitse-prezident institutunun təyin edilməsi davam etdiriləcək və digər vitse-prezidentlər də təyin olunacaq. Və bu institut Azərbaycanda yeni bir sistemin, idarəetmə strukturunun bərpasını nəzərdən keçirir".

**Deputat Zahid Oruc isə bildirdi ki, Mehriban Əliyeva ötən illər ərzində çox uğurla Azərbaycanın xüsusilə mədəni, humanitar, sosial sferada beynəlxalq miqyasda ölkəmizin maraqlarını uğurla təmsil edib. Ona görə də bu təyinat sanki həmin missiyanı rəsmiləşdirmək mənasında oldu:** "Bu təyinat cəmiyyətdə yüksək qəbul olunacaq. Bəzən mediada birinci vitse-prezidentliyinə adları keçən müxtəlif şəxslərin sırasında Mehriban xanım Əliyeva ən layiqlilərdən birincisi idi. Məsələnin ikinci önəmli tərəfi bundan ibarətdir ki, şübhəsiz eyni zamanda böyük ictimai gözləntilər var. Əslində Mehriban xanımın təyinatı cəmiyyətin o gözləntilərinə də uyğundur ki, biz islahatların sürətləndirilməsini dövlət orqanları sisteminin çevikliyinin daha da təminatını reallaşmış görəcəyik. Üçüncüsü, bir xanımın mühüm bir vəzifəyə təyin olunması Azərbaycan qadınına inamı daha da artırmış olacaq və qadınların idarəçiliyin bütün həlqələrində təmsilçiliyini artıracaq. Bütün mənalarda təyinatı uğurlu hadisə kimi qiymətləndirməliyik".

**Parlamentdəki müxalif partiyalardan olan BQP-nin sədri, deputat Fazil Mustafa isə bildirib ki, 1-ci vitse-prezident postu təsis olunandan sonra ictimai rəydə düşüncə o idi ki, bu posta ən layiqli namizəd Mehriban xanım Əliyevadır. Bu da gerçəkləşdi:** "Fikirləşirəm ki, siyasi cəhətdən də doğru addımdır. Mehriban xanım həm beynəlxalq arenada, həm da daxili siyasətdə kifayət qədər nüfuzlu və önəmli işlər görüb. Bu təyinat keçiriləcək islahatları daha da sürətləndirəcək"

Ənənəvi müxalifət düşərgəsindən isə ölkənin birinci xanımının ölkənin rəsmi ikinci şəxsi təyin edilməsinə fərqli münasibət sərgilənib. Bir sıra müxalifət partiyalarının liderləri təyinatı mənfi qarşılayıblar.

❑ **Etibar SEYİDAĞA**



# Daha bir qapalı "MTN işi" başladı

## Vəkil: "Məhkəmədə general Sübahir Qurbanov ayaq üstə dura bilmirdi"

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, Əməliyyat-Texniki idarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası davam edib.**

Lent.az-ın məlumatına görə, Bakı Hərbi Məhkəməsinin sədri hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən proses Sabunçu Rayon Məhkəməsinin inzibati binasında baş tutub. Proses haqqında təqsirləndirilən Füzuli Əliyevin vəkili İlham Həsənov məlumat verib.

O bildirib ki, prosesdə təqsirləndirilən şəxslərin hər birinin anket məlumatları dəqiqləşdirilib.

Vəkillər cinayət işində qanun pozuntuları olduğu üçün işin istintaqa geri qaytarılmasını istəyiblər.

Bundan əlavə, vəkillər təqsirləndirilən şəxslərin əmlaklarına qoyulan həbslə də bağlı vəsatət veriblər: **"Füzuli Əliyevin ulu babasının əmlakına həbs qoyublar Gəncədə olan həmin mənzil 1909-cu ildə tikilib".**

General Sübahir Qurbanovun səhhəti ilə bağlı məcburi müayinəyə göndərilməsi barədə vəsatət verilib: **"Məhkəmədə Sübahir Qurbanov ayaq üstə dura bilmirdi".**

Vəkillər bəzi sənədlərin sübutlar siyahısından çıxarılmasını istəyiblər.

Hakim vəsatətləri baxılmamış saxlayıb.

Qeyd edək ki, ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq baş idarə və idarə rəisləri Sübahir Qurbanov, Teymur Quliyev, Natavan Mirvətova, eləcə də həmin qurumun digər vəzifəli şəxsləri - Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun 2004-2015-ci illər ərzində mütəşəkkil dəstə tərkibində xidməti vəzifələrinin icrası ilə əlaqədar hakimiyyətdən və öz qulluq mövqelərindən sui-istifadə ediblər.

Dəstə üzvlərinin sahibkarların psixi və fiziki zorakılıqlara məruz qalmaqla xəsarətlər almaları, sərbəst buraxılmaları müqabilində tələb olunan vəsaitin əldə olunması üçün ayrı-ayrı şəxslərə və kommersiya banklarına qarşı külli miqdarda borc və kredit öhdəliklərinin yaranması kimi ağır nəticələrə səbəb olan, özlərinin və yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, tutma, həbsə alma və barələrində rüsvayedici məlumatlar yayma hədəsi ilə fiziki və psixi təsirlər göstərilməklə 162 zərər çəkmiş şəxsin ümumilikdə 18 milyon 437 min manat, o cümlədən 6 milyon 449 min manat məbləğində külli miqdarda pul vəsaitlərini, 5 milyon 693 min manat dəyərində zərgərlik məmulatları və daşınmaz əmlaklarını quldurluq və hədə-qorxu ilə tələb etməklə ələ keçirmələrinə, 5 milyon 295 min manat məbləğində nağd pul vəsaitlərini rüşvət kimi almalarına, həmçinin dövlət büdcəsindən xidməti vəzifələrinin icrası üçün ayrılmış 1 milyon manat məbləğində pul vəsaitlərini vəzifə saxtakarlığı ilə mənimsəmələrinə dair şübhələr müəyyən olunub.

Zərərçəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsinin təmin olunması üçün məhkəmə qərarları əsasında təqsirləndirilən şəxslər Sübahir Qurbanov, Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Teymur Quliyev, Natavan Mirvətova və qeyrilərinə məxsus ümumilikdə 21 milyon 528 min manat dəyərində əmlak və pul vəsaitlərinin, o cümlədən 20 milyon 971 min manat dəyərində daşınmaz əmlak, 272 min manat dəyərində nəqliyyat vasitələri, 42 min manat dəyərində zərgərlik və digər qiymətli məmulatlar, 88 min manat, 88 min ABŞ dolları və 5 min Avro nağd pul vəsaitləri üzərinə həbslər qoyulub.



# "Rabitə işi" məhkəməsində sensasion gəlişmə - "Aztelekom"un sabiq rəisi azadlığa çıxır

## Hakim partiya NTK sədri olmuş Məhəmməd Məmmədovun dövlətə vurduğu zərəri ödədiyi deyilir; istintaqda kimin adını çəkmişdi?

**Eldar Mahmudovun MTN-dəki mütəşəkkil cinayətkar qruplaşmasının sıradan çıxarılmasından sonra bu çetenin Rabitə və Yüksək Texnologiyalar Nazirliyində olan bir sıra yüksək vəzifəli şəxsləri, idarə və müəssisə rəhbərləri də həbs edildi. Hazırda həmin şəxslərin mediada "Rabitə işi" kimi tanınan məhkəməsi davam edir.**

Məhkəmədə dövlət əmlakının necə talanması üzə çıxsa da, belə görünür ki, iqtidar dövlət zərərini qaytaranlarla yumşaq davranmaqda qərarlıdır. Çünki ötən ilin oktyabr ayının 6-da "MTN işi" çərçivəsində həbs edilən Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin Nizami Rayon Telefon Qovşağının sabiq rəisi Fətulla Seyidov və həmin birliyin baş mühasibi Rəşad Məmmədov azadlığa buraxılıblar.

Məhkəmənin hökmü ilə F.Seyidov və R.Məmmədov barəsində Cinayət Məcəlləsinin 70-ci maddəsi (şərti məhkum etmə) tətbiq olunaraq, onlara şərti cəza verilib. Hər iki şəxs məhkəmə zalından azadlığa buraxılıb. Bildirilirdi ki, onlar dövlətə vurduqları zərəri ödədikləri üçün azadlığa buraxılıblar.

Gununsesi.info yaxın zamanlarda daha bir rabitəçinin azadlığa çıxacağı xəbərini yazıb. Bildirilir ki, bu, "Aztelekom"un sabiq rəisi Məhəmməd Məmmədovdur. Məlumata görə, Məhəmməd Məmmədov istintaq dövründə dövlətə vurduğu zərəri ödəyib. Bu məbləğ 4 milyon 400 min manat təşkil edib. Zərəri ödəyən sabiq rəisin əmlakları üzərində qoyulan həbslər də götürülüb. Mənbə M.Məmmədovun yaxın zamanlarda azadlığa buraxılacağını deyir.

"Aztelekom" MMC-nin baş direktoru Məhəmməd Məmmədov barəsində həbs-qətimkan tədbiri 2015-ci ilin noyabr ayının 17-də seçilib. M. Məmmədov Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur.

M.Məmmədov həbs edilərkən YAP Mərkəzi Nəzarət Təftiş Komissiyasının (MNTK) sədri idi. Yalnız bir neçə ay sonra M. Məmmədov partiyadakı vəzifəsindən azad olundu. YAP mətbuat xidmətindən yayılan məlumatda deyilirdi ki, M.Məmmədov yoxlamaların və istintaqın başlaması ilə əlaqədar YAP strukturlarında tutduğu vəzifədən azad olunmaq barədə ərizə ilə müraciət edib. "Hazırda o, Mərkəzi Nəzarət - Təftiş Komissiyasının sədri vəzifəsini daşımır"deyə, xəbərdə bildirilirdi.

M.Məmmədov 1957-ci ildə may ayının 9-da Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərinin Bulqan kəndində anadan olub. 1979-cu ildə Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun Elektrotexnika fakültəsini "Avtomatik elektrik rabitəsi" ixtisası üzrə bitirib.

Həmin ildən rabitə sahəsində çalışan M.Ə. Məmmədov elekrtik mexaniki vəzifəsindən başlayaraq mühəndis, böyük mühəndis, stansiya xidmətinin rəisi, Telefon Qovşağının baş mühəndisi, Layihə-Axtarış Kontorunun rəisi, Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin baş mühəndisi və rəisi vəzifələrində işləyib. 2004-cü ildə "Aztelekom" İB-in baş direktoru təyin edilib.

M.Məmmədov istintaqa verdiyi ifadəsində bildirib ki, "Aztelekom"a nazir müavinləri İltimas Məmmədov və Elmir Vəlizadə, aparat rəhbəri Vidadi Zeynalov nəzarət edib.

M.Məmmədov 2009-2013-cü illərdə İB baş mühasibi hər ay V.Zeynalova 500 min manat, 2014-2015-ci illərdə isə aylıq 200 min manat verib. "Aztelekom"un sabiq rəhbəri deyib ki, nazirliyin digər struktur qurumlarının rəhbərləri Vidadi Zeynalova aylıq verirmiş.

Məhkəmədə o da məlum olmuşdu ki, M. Məmmədov işlədiyi dövrdə külli miqdarda kredit götürüb. M.Məmmədov bunu təsdiq edərək kreditin yeni layihələrə xərcləndiyini deyib. Bildirib ki, krediti götürəndə nazirlik ona zəmanət məktubu verib.

M.Məmmədovun V. Zeynalovu "satması" məhkəmədə aparat rəhbərinin vəkillərinin etirazına səbəb olmuşdu. "Aztelekom" rəhbəri isə "orada Vidadi yox, başqası olsaydı, onun adı çəkəcəkdim" demişdi.

❑ **ORXAN**

# Həyat yoldaşını öldürən qadına bəraət verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində qətldə təqsirləndirilən Nuridə Kərimovanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın xəbərinə görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, N. Kərimovanın əməlində cinayət tərkibi olmadığına görə ona bəraət verilib və məhkəmə zalından azadlığa buraxılıb.**

Ötən il iyulun 23-də Ramana qəsəbəsində qətl hadisəsi baş verib. İttihama görə, Nuridə Kərimova həyat yoldaşı, 32 yaşlı Vüqar Kərimovu münaqişə zəminində qətlə yetirib. 27 yaşlı N. Kərimova bildirib ki, əri gecələr evə sərxoş vəziyyətdə gəlirmiş. İyulun 23-də növbəti dəfə evə içkili halda gələn Vüqar Kərimovla həyat yoldaşı arasında dava düşüb. Ərinin bıçaqla onu öldürəcəyini görən qadın cəld tərpənərək bıçaqla ona zərbələr endirib. V. Kərimov hadisə yerində dünyasını dəyişib.

# Dəm qazı daha bir can aldı

**Abşeron rayonunda dəm qazı bir nəfərin ölümünə səbəb olub. APA-nın məlumatına görə, hadisə Xırdalan şəhəri, Gənclər şəhərciyi, 79-cu blokda qeydə alınıb. Orada yaşayan, 1993-cü il təvəllüdlü Samirə Bəhram qızı İsayeva yaşadığı evdə dəm qazından boğularaq ölüb.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Həmsədrlər üçün "referendum" testi - çıxa bildilərmi?

**İşğal altındakı Dağlıq Qarabağda qanunsuz səsvermə problemin üçüncü on ildir niyə çözülmədiyinə yeni işıq saldı; nüvə müttəfiqimiz Pakistandan işğalçıya sərt cavab gəldi...**

**İşğal altındakı Dağlıq Qarabağda saxta referendumla Ermənistan bir daha konstruktiv danışıqlardan nə dərəcədə uzaq olduğunu nümayiş etdirdi, faktiki şəkildə problemin həlli üçün Azərbaycana yalnız bir yol saxlamış oldu - hərb variantı. Separatçı bölgədə srağagünkü səsvermə tamaşasını vasitəçi dövlətlər ən əvvəl bu kontekstdə - müharibə riskinin daha da artması kontekstində dəyərləndirmədilər.**






Əfsus ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri yenə növbəti bir bəyanat yaymaqla öz işlərini bitmiş hesab elədilər. "Referendum"un nəticələrini legitim saymasalar da, belə qondarma "plebissit"lərin bir daha təkrarlanması üçün gərəkən minimumu etmədilər. Bu mənada Dağlıq Qarabağdakı qanunsuz referendum ATƏT-in Minsk Qrupu həmsədrlər üçün həm də bir testi idi. Vasitəçilər ondan çıxa bilmədilər. Məsələn, ən azından birmənalı şəkildə bəyan edə bilərdilər ki, azərbaycanlı əhalinin köçkün vəziyyətdə olduğu bir vaxtda Dağlıq Qarabağda hər hansı "seçki"nin, "referendum"un keçirilməsi absurd və boş yerə vaxt itirməkdir.

Gerçəkdən də etnik təmizlənməyə məruz qalmış, işğal altında olan bir bölgədə hansı legitim səsvermədən söhbət gedə bilər ki? Məsələ də bundadır ki, ya sən işğal rejimini tanıyırsan, ya da saxta seçkiləri seçki hesab edirsən. Orta yol - ikili standartdır.

*****

Bu ay həm də Dağlıq Qarabağda aqressiv separatçı hərəkatın baş qaldırmasının 29 ili tamam olur. Məhz ikili standart yanaşmasının, işğalçını Krımı zorla ilhaq etmiş Rusiya kimi öz adı ilə çağırmamağın nəticəsidir ki, Ermənistanın Azərbaycana əsassız ərazi iddiasından doğan Dağlıq Qarabağ münaqişəsi həll olunmamış qalır. Məgər beynəlxalq hüquqa həqarət olan belə yanlış yanaşma və onun indiki nəticəsi öz-özlüyündə heç nə demir?

Ən önəmlisi odur ki, ikili standart yanaşması münaqişə zonasında müharibə ehtimalını heç vaxt olmadığı qədər artırıb. Vasitəçi güclər belə bir müharibədə maraqlı deyilsə, - onların bəyanatlarından belə qənaət hasil olur ki, hər halda, maraqlı deyillər, - o zaman bir an öncə Qarabağa dair sülh danışıqlarını dalana dirəyən siyasətdən əl dötürməlidirlər. Bu siyasət bölgədə daimi sabitlik və ədalətli sülhə gətirsəydi, çoxdan gətirərdi.

"Amerika" açmağa nə ehtiyac, problemin optimal həlli üçün baş sındırmağa lüzum yox: belə bir həlli özündə ehtiva edən beynəlxalq hüquq, BMT Nizamnaməsi, BMT-nin, AŞ PA-nın, Avropa Parlamentinin Qarabağa dair qətnamələri çoxdan ortadadır.

Təəssüf ki, vasitəçilər bu sənəd və qətnamələri deyil, müstəsna olaraq regionda öz maraqlarının diktə etdiyi siyasəti əsas götürürlər. Azərbaycan prezidenti İlham Əliyevin az öncə bəyan elədiyi kimi, onlardan biri onu silahla, o biri maliyyə ilə təmin edir, üçüncüsü isə işğalçının təbliğatı ilə məşğul olur.

Amma konkret olaraq, Qərb - ABŞ və Avropa Birliyi başqa bir işğalçı dövlətə - Rusiyaya qarşı Krıma görə 3 ildir ən ağır sanksiyalar tətbiq edir. Fəqət Ermənistana gələndə nədənsə, açıq-aşkar təcavüz faktı unudulur, bir ovuc erməni üçün öz müqəddəratını təyinetmə təklifi irəli sürülür. Lakin nə Azərbaycan dövləti, nə də təbii ki, Azərbaycan xalqı tarixi və qanuni torpaqlarımızda ikinci uydurma erməni dövlətinin qurulmasına heç vaxt razı olmayacaq. Azərbaycanda Dağlıq Qarabağ probleminin ərazi bütövlüyü həsabına həllini ağlından keçirən heç bir qüvvə yoxdur, olmayacaq. Bunu gözləyənlər doğrudan da boşuna gözləyir.

*****

Yaranmış durumda Azərbaycanın hərbi və iqtisadi cəhətdən durmadan güclənməkdən savayı yolu qalmır. Güclənməli, güclənməli, bir daha güclənməliyik. Eyni zamanda dost-müttəfiqlərimizin sayını artırmalıyıq. Xüsusən də Qarabağ məsələsində ədalətli mövqe sərgiləyən ölkələr və beynəlxalq qurumlarla əməkdaşlığımızı ən yüksək səviyyəyə qaldırmalı, işğalçı Ermənistanın izolyasiyasını gücləndirəcək yeni rıçaqlar axtarıb tapmalıyıq.

Sözsüz ki, daxildə vətəndaş barışını təmin etməyi də yaddan çıxarmamalıyıq. Çünki Dağlıq Qarabağ ixtilafını ilk növbədə güclü və monolit Azərbaycan cəmiyyəti həll edəcək. Paralel surətdə təbliğat müharibəsində imkanlarızı genişləndirməliyik. Ələlxüsus, erməni lobbisinin güclü olduğu dövlətlərdə Qarabağ həqiqətlərinin yerli toplumlarda oturuşması üçün mümkün hər şeyi etməyi bacarmalıyıq.

Onu da yaddan çıxarmaq olmaz ki, ermənilər öz mənfur niyyətlərinə çatmaq üçün bütün vasitələri məqbul hesab edirlər. Söhbət həm də Azərbaycanın dost-müttəfiq dövlətlərlə arasını vurmaq cəhdlərindən gedir. Bunu işğal altındakı bölgəmizdə srağagünkü referendum oyunu zamanı bir daha gördük. Erməni mənbələri belə bir absurd xəbər yaydılar ki, guya saxta referendumu müşahidə edənlər arasında Pakistan nümayəndələri də olub. Halbuki əsas hərbi-strateji müttəfiqlərimizdən olan Pakistan yeganə dövlətdir ki, heç Ermənistanı dövlət kimi indiyədək tanımayıb - o iki ola separatçı qurumu.

Gözləndildiyi kimi, artıq rəsmi İslamabad buna dərhal reaksiya verib. **"Pakistan hökuməti Dağlıq Qarabağda keçirilən qondarma referenduma heç bir müşahidəçi göndərməyib".** Bu barədə Pakistan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib. XİN sözçüsü Ermənistan mətbuatında yayılan məlumatların yalan olduğunu bəyan edib (APA). **"Biz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyirik. Pakistanın mövqeyi ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının qaytarılması çərçivəsində həllini tapmalıdır. Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ və ətraf rayonlardan çıxarılmalı, qaçqın və məcburi köçkünlər öz evlərinə qayıtmalıdır"**, - deyə bəyanatda qeyd olunur.

Pakistanın xarici siyasət idarəsi həmçinin xatırladıb ki, İslamabad Ermənistanın Azərbaycana qarşı işğalçılığı üzrə İslam Əməkdaşlıq Təşkilatının yaratdığı Təmas Qrupunun üzvüdür. Yeni nüvə müttəfiqimiz Pakistandan işğal altındakı ərazilərimizə kiminsə qanunsuz getməsi, üstəlik, saxta referendumu izləməsi əsla mümkün ola bilməzdi. Amma nə edəsən ki, erməni öz həyasız təbliğatından əl çəkmir.



## Cocuq Mərcanlıda "Şuşa" məscidi tikiləcək

**Dünən Qafqaz Müsəlmanları İdarəsində (QMİ) "Xocalı soyqırımı xalqın qan yaddaşıdır!!! "Xocalıya ədalət!" adlı tədbir keçirilib. Tədbirdə QMİ-nin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov, millət vəkilləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

A.Paşazadə bildirib ki, Xocalı soyqırımı heç vaxt yaddan çıxmayacaq: "Həqiqət öz yerini tutacaq. Xocalı faciəsi Azərbaycanın qan yaddaşıdır. Ermənilərin bizə qarşı apardıqları soyqırım nəticəsində çoxlu sayda şəhidlər vermişik. Bizi öldürməklə xalqımızı əymək olmaz. Haqq öz yerini tutacaq. Xocalı faciəsi 200 il əvvəl başlamışdı. Heydər Əliyev SSRİ siyasi bürosundan çıxarılandan sonra Azərbaycan xalqına qarşı soyqırım yenidən başlandı, torpaqlarımız işğal olundu. Bizim işimiz ondan ibarətdir ki, dünya ictimaiyyətinə ermənilərin xalqımıza qarşı apardığı təcavüzü, məscidlərimizi, mədəniyyət abidələrimizi dağıtdığı haqqında həqiqətləri çatdırmalıyıq. Soyqırımla bizim xalqımızı sındırmaq olmaz. Aprel döyüşləri, Cocuq Mərcanlının bərpası onu göstərir ki, prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız tez bir zamanda geri qaytarılacaq. Cocuq Mərcanlıda «Şuşa» məscidinə oxşar bir məscid tikiləcək".

A.Paşazadə bildirib ki, cümə günü Azərbaycanda bütün məscidlərdə Xocalı faciəsi ilə bağlı ehsanlar veriləcək, dualar ediləcək.

YENİ MÜSAVAT
N 40 (6654) 22 fevral 2017

**İŞİD-in kütləvi qırğın silahından istifadə edəcəyi təhlükəsi yenidən gündəmə gəlib. Bu dəfə məsələni dünyanın ən varlı adamlarından biri olan "Mikrosoft" şirkətinin prezidenti Bill Qeyts aktual edib. Milyarder bəyan edib ki, İŞİD bioloji silah hazırlamaq üçün bütün imkanlarını səfərbər edib. Onun sözlərinə görə, bio-terrorizm hər il 30 milyon insanın ölümünə səbəb ola bilər.**

# İŞİD-in gizli gücü - terror təşkilatını ayaqda saxlayan əsas səbəb

## Dünyanın ən qorxulu terror təşkilatının gücünə güc qatan generallar və ya Səddamın "quma batan" ordusunun dirilməsi...



Məsələ ondadır ki, İŞİD-in kimyəvi silahlardan istifadəsi iddiası yeni deyil. İraq və Suriyada böyük ərazilərə nəzarət edən və hazırda formal olaraq dünyanın az qala, yarısı ilə müharibə vəziyyətində olan, bir neçə cəbhədə savaşan İŞİD zaman-zaman düşmənlərinə qarşı zəhərli qazlardan istifadə edir. Əgər bioloji silah iddiaları doğrudursa, o zaman İŞİD təhlükəsinin daha da ciddiləşdiyini düşünmək olar. Ancaq bütün bunlar həm də ilk olaraq bu sualı gündəmə gətirir: İŞİD bu silahları və texnologiyanı necə əldə edir və onları istifadə edir?

İki gün əvvəl İraqda Telafer şəhəri yaxınlığında hərbçilər İŞİD-ə məxsus silahlı pilotsuz aparatı zərərsizləşdiriblər. Yəni İŞİD həm də ən son model texnikalardan istifadə edə bilir. Buna qədər İŞİD-çilər tanklardan, hətta Suriya və İraq ordusundan qənimət götürdükləri hərbi təyyarələrdən istifadə ediblər.

Amma bütün bunlar olmasa belə, İŞİD-in son iki ildə apardığı savaşlar, hərbi əməliyyatlar, hücum və müdafiə taktikaları, Kobani, Mosul və digər şəhərlərdə həyata keçirdiyi müdafiə döyüşləri bu terrorçu təşkilatın hərbi bacarığını ortaya qoyub. 5 ay ərzində 64 ölkənin birləşdiyi hərbi koalisiyanın havadan bombaladığı və qurudan minlərlə döyüşçünün müdafiə etdiyi Kobanidə və ya son olaraq Yaxın Şərqin ən qüdrətli ordusu olan Türkiyə ordusuna qarşı az qala hər ev uğurunda savaşan və müqavimət göstərən İŞİD-çilərin döyüş bacarığı heyrət doğururdu. Nədir İŞİD-in hərbi sirri? Doğrudanmı iki ölkədə 12 milyon insanın yaşadığı böyük bir ərazini işğal edən qruplaşmanın başında bəzilərinə görə agent, bəzilərinə görə Bağdad Universitetinin ilahiyyat doktorunun dayandığı dünyanın müxtəlif ölkələrindən cəmləşmiş cihadçılardan ibarətdir?

İŞİD-in hərbi qüdrətinin sirri, apardığı savaşlarda əldə etdiyi uğurlar, inanılmaz sürətli hücum, güclü müqavimət təşkil etmək bacarığı indi də dünyanın hərbi mütəxəssislərini heyran edir. Məlum olduğu kimi, İŞİD-in əsası 2004-cü ildə - ABŞ İraqı işğal etdikdən bir il sonra qoyulub. O zaman Əbu Musab Əz-Zərqavinin rəhbərlik etdiyi "əl-Qaidə"nin İraq qolu bir neçə il amerikalılara qarşı terror aktları törədir. Ancaq bir neçə il sonra Zərqavi öldürülür. Bununla da təşkilatın fəaliyyəti zəifləyir. "Əl-Qaidə"nin İraq qolu bir də 2011-ci il "ərəb baharı" dalğası ilə meydana çıxır.

Maraqlıdır ki, ilk vaxtlar "əl-Qaidə"nin yerli qolu kimi çıxış edən qruplaşma tezliklə yollarını ayırır və 2013-cü ilin sonlarında "əl-Qaidə" lideri Əyman Əz-Zəvahiri audio müraciət yayaraq cihadçıları "Ən-Nusra" cəbhəsinə birləşməyə çağırır və onları bu bölgədə bu qruplaşmanın təmsil etdiyini bəyan edir. Bununla da ilk dəfə olaraq İraq-Şam İslam Dövləti adlı qruplaşmanın adı tez-tez səslənməyə başlayır. 2014-cü ilin əvvəlində Suriyanın şimalında İŞİD və "Ən-Nusra" arasında savaş başlayır və digər qruplaşmaları məğlub edən İŞİD Raqqa şəhəri də daxil olmaqla, Suriyanın şimalında neftli torpaqlarla birlikdə böyük bir ərazini nəzarətə götürür. İyun ayında isə ardıcıl olaraq hücumlar edən İŞİD, nəhayət, Mosul şəhərini, o cümlədən Səddam Hüseynin vətəni Tikrit, Fəlluca kimi əyalətləri işğal edir. Bununla da İraqın və Suriyanın 30 faizdən çox əraziləri İŞİD-in nəzarəti altına düşdü. Bu ərazilərdə Dəclə və Fərat çayları, böyük su anbarları, neft yataqları və İraqın ikinci böyük və qədim şəhəri Mosul da vardı.

Mosula daxil olan İŞİD tezliklə özünü "İslam xilafəti" elan etdi, qruplaşmanın lideri Əbu Bəkr əl-Bağdadi və ya əsl adı İbrahim Avad əl-Bədri əs-Samirrayi olan şəxs özünü xəlifə elan etdi. Yeni "xilafətin" pul vahidi (dinar), polisi, kəşfiyyat xidməti və digər strukturları quruldu. Ancaq təbii ki, İŞİD-in əsas gücü onun hərbi qüvvələri və ya silahlıları idi.

Həmin vaxt çoxlarının diqqətini cəlb etməsə də, İŞİD-lə birlikdə Mosulun, Tikritin işğalında "Nəqşibəndi ordusu" deyilən qruplaşmanın da adı gedirdi. Amma nə bu qruplaşma, nə də İŞİD-in ərəb komandirləri haqqında geniş bilgi yox idi. Videosüjetlərdə, roliklərdə isə bir qayda olaraq başqa ölkələrdən gələn İŞİD-çilər görünürdü, Əbu Ömər əş-Şişani, Tacikistandan, Çeçenistandan, Azərbaycandan, Türkiyədən olan komandirlər daha çox üzdə görünürdü. Halbuki kəşfiyyat rəqəmlərinə əsasən İŞİD-in üzvlərinin 30 mini xarici ölkələrdən gələnlər idi. Yerdə qalan bəzi rəqəmlərə görə 80 min nəfərlik yerli (iraqlı və suriyalı) üzvləri haqqında ciddi məlumat yox idi. Məsələn, bir aralar mediada İŞİD-in "müdafiə naziri" kimi təqdim olunan Əbu Ömər Şişani (Gürcüstan vətəndaşı Tarxan Batriaşvili) Pankisi dərəsində yeniyetməlik illərində ruslara qarşı silah götürüb və Gürcüstan ordusunda çavuş rütbəsində xidmət edib. O cümlədən digər İŞİD üzvlərinin də hansınınsa hərbçi təhsili və zəngin təcrübəsi yox idi. Hər halda, üzdə olan İŞİD-çilərdə yox idi.

İŞİD-in hərbi uğurlarının əsl müəllifinin kimliyi yalnız bir dəfə - 2014-cü ildə üzə çıxıb. 2014-cü ildə haqqında ilk xəbərlər çıxan və 2015-ci ildə öldürülən (bəlkə də ölümünün əsas səbəbi kimliyinin üzə çıxması idi - K.R.) Səddam Hüseyn zamanında İraq ordusunun generalı olmuş və amerikalıların başına 10 milyon dollar mükafat təyin etdikləri İzzət əd-Duri bir müddət İŞİD-in əsas "beyini" olaraq təqdim olunurdu. Həmin vaxtlarda Səddam Hüseynin İordaniyada yaşayan qızı da İŞİD-ə dəstək mesajları verirdi.

Əslində hər şey o zaman aydın idi: İŞİD-in hərbi gücünü idarə edənlər Səddam Hüseyn ordusunun generalları idi. Mosulun, eləcə də Səddamın ata yurdu Tikrit, Fəlluca kimi şəhərlərin İŞİD-ə müqavimətsiz təslim olması, qruplaşmanın sürətlə Bağdadın yaxınlığına qədər gəlib çıxmasının əsas səbəbkarı Səddam generalları idi. O generallar ki, 10 il fürsət gözləmişdilər. 2003-cü ilin martında Səddam Hüseyn ordusu ABŞ ordusuna qarşı bir neçə həftə müqavimət göstərə bildi və bundan sonra diktatorun ordusu yoxa çıxdı. O zaman bir sıra ekspertlər Səddam ordusunun "quma batdığını" yazırdı. Əslində də elə idi. Amerikalılar S.Hüseyn hökumətini buraxdılar, bütün dövlət aparatı ilə yanaşı, ordu da buraxıldı və xüsusən də zabit və generallar "yer altına" çəkildilər. 8 il İran-İraq savaşında, daha sonra iki dəfə dünyanın ən güclü ordusu olan ABŞ hərbi qüvvələrinə qarşı vuruşmuş, Küveytin işğalını həyata keçirmiş bir ordunun təcrübəli zabitləri10 illik fasilədən sonra İŞİD ortaya çıxanda həm də qisas üçün meydanlara qayıtdılar. Səddam generallarının rəhbərlik etdiyi İŞİD silahlıları eyni vaxtda dünyanın ən güclü və təcrübəli ordularına qarşı güclü müqavimət təşkil edirdilər. İŞİD-in həm İraq ordusuna, həm Suriya ordusuna, eləcə də kürd silahlı birliklərinə, Suriyada müxalif silahlılar və Türkiyə ordusuna qarşı savaşı, tətbiq etdiyi ən gözlənilməz taktika, hücum və müqavimət əməliyyatları onun qərargah komandirlərinin təcrübəli hərbçilər olduğunu göstərir.

❑ Kənan RÖVŞƏNOĞLU



## ANS-in bağlanmasından 7 ay ötdü

### Sevda Həsənova: "Ümidlə gözləyirik, ümidsiz düşmənimiz olsun"

**Fevralın 18-də ANS-in qapadılmasının 7 ayı tamam oldu. Kanalın qapadılmasından sonra ötən bu müddət ərzində keçirilən məhkəmə prosesləri nəticə verməyib və telekanal rəhbərliyinin iddiaları təmin edilməyib. Ötən 6 ay ərzində ANS-in əməkdaşlarının da bir qismi digər kanallarda işə düzəliblər. Lakin əksər əməkdaşların kanalın fəaliyyətinin bərpa olunacağı ümidi ilə gözlədikləri bildirilir.**

"Yeni Müsavat"a danışan ANS-ÇM Yayım və Media Şirkətinin baş direktoru olmuş Sevda Həsənova bildirib ki, hələ ki gözləyirlər: "ANS-lə bağlı hər hansı bir yenilik yoxdur. Hələ ki ümidlə gözləyirik. Digər əməkdaşlarımız da hamı kimi gözləmə mövqeyindədirlər. Hər birimiz kanalın açılacağına ümid edirik. Ümidimiz itməyib. Ümidsiz düşmənimiz olsun".

Xatırladaq ki, MTRŞ Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq "ANS Müstəqil Yayım və Media" Şirkətinin yayımının 18 iyul 2016-cı il tarixdən saat 18:30-dan etibarən 1 ay müddətinə dayandırılması barədə qərar qəbul edib. Həmin zamandan etibarən kanalın fəaliyyəti dayandırılıb.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 40 (66554) 22 fevral 2017

# "Deyingənlik edib hər şeyi qara rəngdə verməyin tərəfdarı deyiləm"

## Zeynal Məmmədli: "Medianın Azərbaycanda dördüncü hakimiyyət olması üçün ilk üç hakimiyyət müstəqil olmalıdır"

**Media eksperti, AzadlıqRadiosunun baş redaktoru Zeynal Məmmədli "Yeni Müsavat"a müsahibə verib. Onunla söhbəti təqdim edirik:**

*- Zeynal müəllim, əsas iş yeriniz olan AzadlıqRadiosunun fəaliyyəti məhdudlaşıb. Hazırda fəaliyyətinizi hansı istiqamətdə qurmuşunuz, nə üzərində işləyirsiniz?*

- AzadlıqRadiosu ilə bağlı istintaq işi hələ yekunlaşmayıb, nə zaman yekunlaşacağı da bəlli deyil. O baxımdan radionun fəaliyyəti haqqında nə isə danışa bilmərəm. Mən hazırda müstəqil ekspert kimi media araşdırmaları ilə məşğulam, ictimai əsaslarla televiziyaların reportyorları, kommentatorları, proqram hazırlayanları ilə konsultasiya işləri aparıram. Mümkün olduğu qədər faydalı olmağa çalışıram. Radio ilə bağlı hüquqi müstəvidə işimizin bərpa olunmasını gözləyirik. Bizimlə birgə radioda çalışan jurnalistlər də gözləyirlər. Ancaq onlar həm də dolanmalıdırlar, ona görə də hərəsi bir media qurumunun xəbər xidmətində çalışır.

*- Radio ilə bağlı aparılan istintaq işi nə yerdədir?*

- Məndə olan bilgi budur ki, QHT-lərlə bağlı iş davam edir, AzadlıqRadiosu ilə bağlı iş də onun tərkib hissəsi kimi aparılır. Oradakı bir çox ittihamlar özünü doğrultmadı və geri götürüldü. Ən azı Xədicə İsmayılın azadlığa buraxılması ilə biz gördük ki, bir çox ittihamlar geri götürüldü. Vergi ilə bağlı məqam da özünü doğrultmadı. İndi istintaq işinin nəyin üzərində aparıldığını da biz bilmirik, konkret məlumat yoxdur. Hiss olunur ki, burada hüquqi yox, siyasi proses gedir. Bu, jurnalistika və vergi problemi deyil, iki ölkə - Azərbaycanla ABŞ arasında münasibət problemidir. Ancaq rəsmilər açıqlama verir ki, Azərbaycanla ABŞ-ın çox dərin strateji əlaqələri var. Əgər doğrudan da bu əlaqələr varsa, bu məsələ niyə həll olunmur. Digər bir məqam odur ki, AzadlıqRadiosunu sırf Amerika radiosu kimi qavramağın özündə də yanlışlıq var. Bəli, radionu ABŞ Konqresi maliyyələşdirir. Ancaq bu radionu yaradanların içində azərbaycanlı da olub, ABŞ generallarına müraciət edən 3 nəfərdən biri Ceyhun Hacıbəyli olub. Cəmiyyət bəlli bir səviyyəyə çatdıqdan sonra o radio sıradan çıxır.

*- Radionun əməkdaşlarının vəziyyəti necədir?*

- AzadlıqRadiosunda çalışanlar yetərincə media təcrübəsi olan insanlardır. Onlar üçün media məhsulu hazırlamaq, satmaq çətin deyil. Biz media bazarı olaraq təkcə Azərbaycanı götürmürük. Bütün Azərbaycan jurnalistləri necə dolanırsa, onlar da o cür.

*- Radionun bəzi əməkdaşları xaricdə olsalar da, bildiyim qədər mühacir kimi getməyiblər. Onların ölkəyə sərbəst giriş-çıxış imkanları varmı?*

- Onların heç biri siyasi mühacir deyil. Rahat şəkildə gedib-gəlirlər. Onlara qarşı siyasi təqib də yoxdur. Şəxsən məndə də ölkədən çıxış qadağası yoxdur, digər əməkdaşlardan da xaricə gedib-gələnlər var. Ancaq Xədicə İsmayıla var.



*- Siz də, xanımınız da AzadlıqRadiosunda çalışırdınız. İndi ikinizin də işsiz qalması maddi durumunuza necə təsir edir?*

- Biz yenə də mədəniyyətlə bağlı "İz" proqramını hazırlayırıq. Orada da aparıcı hissəni Cümhuriyyət dönəminin olaylarına, Azərbaycan mühacirətinə, mühacirlərin sonrakı taleyinə ayırmışıq. Eyni zamanda Məhəmməd Əmin Rəsulzadənin ailəsi, genetik qohumları, onların başına gələnlər, ailə faciələri və bu kimi mövzular bizim diqqətimizdədir. Həmçinin çox ciddi mədəni olaylara da yer ayırırıq.

*- Bunun maddi qarşılığını da alırsınızmı?*

- Əməyimizin haqqını hələ ki almırıq. AzadlıqRadiosu fəaliyyətini bərpa edəndə bütün bu məsələlər həll olunacaq. İndi sanki gələcəyə işləyirik. Bu da böyük bir şeydir ki, orada pulumuz yığılır və bilirik ki, onu nə zamansa ala biləcəyik.

*- Müəllim kimi fəaliyyətinizə davam edirsinizmi?*

- Bu da gəlib eyni məsələdə ilişir. Müəllim işlədiyim Bakı Jurnalistika Məktəbi qrant ala bilmir. Ancaq ictimai əsaslarla kurslar keçirik. Konvergent jurnalist hazırlamağa çalışırıq, həm qəzetdə, həm saytda çalışa bilsin, multimedia imkanlarına yiyələnsin.

*- Zeynal müəllim, hazırda müstəqil media üçün maliyyə qaynaqları bir-bir qapanır. Bu, media azadlığına necə təsir edir? Sizin üçün mənzərə necədir?*

- Mənzərə belədir ki, mən tunelin sonunda işıq görməyə öyrəşmiş adamam. Daha doğrusu, bunu arzulayan adamam. Ona görə də deyingənlik edib hər şeyi qara rəngdə verməyin tərəfdarı deyiləm. Azərbaycandan çətin durumda olan ölkələr də var. Ancaq düşünsək ki, bu situasiyada medianın özünün nə dərəcədə günahı var, o aspektdə danışmaq faydalı olar. Necə oldu ki, media rəsmi reklam bazarını itirdi? Medianı niyə belə asanlıqla aşağı yuvarladılar, belə aciz duruma saldılar. Burada hakimiyyətlərin, siyasi azadlıqların da rolu var, bu öz yerində. Ancaq medianın özü nə etməli idi ki, bir güc olaraq ortada qalsın. Təbii ki, biz dördüncü hakimiyyət ola bilməzdik. Çünki medianın Azərbaycanda dördüncü hakimiyyət olması üçün ilk 3 hakimiyyət müstəqil olmalıdır. Ancaq ilk 3 hakimiyyət- parlament hakimiyyəti də, məhkəmə hakimiyyəti də icranın əlində olanda, onda dördüncü hakimiyyət olmaq mümkün deyil. Bəzilərində də illüziya yaranır ki, bu halda biz ikinci hakimiyyət ola bilərik. Hakimiyyətə alternativ biz ola bilərik. Ancaq burada da mediakratiya yaranır. Media bir siyasi güc kimi ortaya çıxır. Bu da media üçün arzuolunmaz haldır. Çünki media birdən-birə prokuroru, müstəntiqi, siyasi partiyaları əvəz edir. Bu artıq media olmur, bir siyasi gücə çevrilir. Bu arzuolunmaz haldır və ictimai rəyi də çaşdırır. İctimai rəy də medianı bu cür qəbul edir. Media siyasi qüvvələrin yedəyində gedir, bir hissəsi iqtidar partiyasının, bir hissəsi müxalifət partiyasının, bir hissəsi də ortalıqda var olduğunu göstərmək üçün gah onun, gah bunun yedəyində olur.

*- Hazırkı durumda medianın, ayrı-ayrılıqda jurnalistlərin siyasi alətə çevrilməkdən xilas olması üçün nə etmək olar?*

- İndi başqa dövrlərdə olmayan imkanlar var, Bunlar beynəlxalq əlaqələrdir. Bunlar elə qurulmalıdır ki, sən kiminsə siyasi sifarişlərini yerinə yetirən bir təşkilata çevrilməyəsən, ancaq Azərbaycan həyatını dolğun və doğru şəkildə xəbərləyə bilərsən. Bu zaman sənin qonorar almaq imkanın da olur və minimum da olsa özünü təmin edə bilərsən. Jurnalistika elə bir sahədir ki, buraya gələnlər bilir ki, heç zaman varlı olmayacaqlar. Ancaq burada özlərini doğruldacaqlar. Hazırda sosial medianın inkişaf etdiyi bir şəraitdə, informasiyanı təcrid etməyin qeyri-mümkün olduğu bir şəraitdə işıq yolu var.

*- Zeynal müəllim, təxminən 40 ildən artıq media təcrübəniz var. Hazırda müşahidə olunan durum nə vaxtsa müşahidə olunmuşdumu? Media necə çıxmışdı o durumdan?*

- Sovet dövrü ilə belə müqayisə etsək, hazırda bir çox kəsimlərin həyatının işıqlandırılması baxımından biz geriyə getmişik. Məsələn, sosial məsələlər, təhsil məsələsi, səhiyyə məsələsi, insanların güzəranı baxımından o dövrdə media insanlara indikindən qat-qat yaxın idi. O zaman sən Mərkəzi Komitəni tənqid edə bilməzdin, onlar sənin əvəzindən düşünürdü, sən onun əsgəri sayılırdın. Amma bir raykom katibini tənqid edə bilirdin. Ancaq biz indi ondan geri situasiyadayıq. Bir bölgə qəzetində rayon rəhbərliyini tənqid edə bilmirsən. Bizim ən azad dövrümüz Qorbaçovun yenidənqurma dövründə oldu. O zaman SSRİ-də medianın ən azad dövrü idi. Düzdür, o zaman bu qədər media orqanı yox idi. Düzdür, onların siyasi yükdən tam azad olduğunu, bazardan qazanma imkanlarının genişləndiyini də demək olmazdı. Ancaq indiki ilə müqayisədə, 1998-ci ilədək medianın bazarda qazanmaq imkanı var idi. Reklam bazarı daha sərbəst idi. 1998-ci ildən sonra situasiya kəskin dəyişdi, reklam bazarı inhisara alındı. "Kim mənimlədirsə, ona nə isə verilir, kim mənimlə deyilsə, heç nə verilmir" prinsipi işə başladı. Azərbaycan mediasının tam asılılıq dövrü başladı.

**"Əgər xaricdən bir mediaya pul verilirsə, o, yerli auditoriyanın inamını itirə bilər"**

*- Bir müddət medianın xaricdən qrant almaq imkanı var idi, ancaq indi o da yoxdur...*

- Media orqanı olaraq qrant almaq mümkün deyildi, hansısa bir layihə ilə bağlı almaq olardı. Əgər xaricdən bir mediaya pul verilirsə, o, yerli auditoriyanın inamını itirə bilər. Media həmin xarici qüvvənin ideyalarını həyata keçirir. O ideyalar isə sözdə çox müsbət şeylər olur, ancaq arxa planda sənin tənqidin belə siyasi kontekstdə qiymətləndiriləcək, sifariş yerinə yetirmək kimi dəyərləndiriləcək və şübhə doğuracaq. Pulu kim verirsə, musiqini də o sifariş edir məntiqi ilə sənə yanaşacaqlar. Sənin öz haqlılığını sübut etmək imkanın olmayacaq.

*- Demokratik ideyalar və qrant deyəndə ilk növbədə Amerika yada düşür. Ancaq ehtimal edilir ki, Trampın prezident olmasından sonra ABŞ dünyaya demokratiya ixrac etməkdən daha çox, öz iqtisadiyyatını gücləndirməyə çalışacaq. Sizcə, bu demokratiyaya can atan ölkələrə necə təsir edəcək?*

- Mən dünyada medianın durumunu və perspektivlərini bir Trampın necə siyasət aparacağına bağlamıram. Çünki ABŞ demokratiyasının özündə geriləmələr, bu ölkənin demokratiya ideyalarından daha çox kommersiya maraqlarını güdməsi və sair istiqamətdə rəylər var. Ancaq onu da nəzərə almaq lazımdır ki, Amerikada formalaşmış demokratiya ənənələri olan bir ölkədir. Orada Trampın şıltaqlığı, dünyaya kommersiya obyekti kimi baxmaq sərbəstliyi olmayacaq. Amerika idarəetmə sistemi buna imkan verməz.

*- Zeynal müəllim, jurnalistikanın ən böyük problemi odur ki, normal, ciddi yazılar oxunmur. Yazını necə oxutmaq olar?*

- Bu bir kəşf və yenilik deyil. Bütün dünyada vəziyyət belədir. Kütlə insanının, cəmiyyət həyatına qatılmayan insanın maraq dairəsini asanlıqla hesablamaq olur. Heç bir hazırlıq tələb etməyən informasiyalar, bioloji maraqlardan tutmuş şəxsiyyətin sırf özünə lazım olan informasiyalar onun maraq dairəsindədir. Ancaq bir məsələ də var ki, bu tələbatı biz yaradırıq. Deməli, biz onda ciddi informasiyaya tələbat yaratmamışıq. Bu gün google-da ən çox hallanan sözləri götürsək, o sözlərdən istifadə edib yazını oxutmaq olar. Oxucunun düşüncəsini öncədən tapıb, onun istədiyini verirsən. Amma biz onun istəmədiyini, ancaq ona faydalı olanı ona verməyin yollarını tapmalıyıq. Bu informasiyalar sanki dərmandır. Kim dərmanı könüllü içir? Dərman acı olur, iynə incidir. Jurnalistika da bu dərmanlar, inyeksiyalardır. Əgər insanları bu acıya alışdırmasan, alınmayacaq. Oxunaqlı yazmaq, informativ yazmaq lazımdır. Dövrün tələbi odur ki, daha qısa yazmaq lazımdır. Burada demokratiyanın da problemi var. Demokratiyada aristokratlara xüsusi yer yoxdur. Bu sistem bütün insanları bərabərləşdirir, zövqləri, mədəni səviyyələri də nəzərə almalısan. Əgər onları çıxdaş etsən, yalnız aristokratiyaya ünvanlansan, onlar da səni kənarlaşdıracaqlar, gözardı edəcəklər. Biz onları idarə etməliyik, onlara istədiklərini, google-da axtardıqları sözləri verməliyik.

❑ Nərgiz LİFTİYEVA
❑ Fotolar Məğrur MƏRDİNDİR



# Narkotik maddələrlə bağlı düzəliş nəyi dəyişəcək?

## Ekspert qanuna dəyişikliyi şərh etdi

**Prezident İlham Əliyev "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda dəyişiklik edilməsi haqqında qanunu təsdiqləyib.**



Sənəddə "Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilər" fəsli yeni redaksiyada verilib.

Həmin siyahı ilə tərkibində narkotik maddələr olan bitkilərin külli miqdarının ölçü vahidi kimi həmin bitkilərin yalnız sayı müəyyən edilib.

**Sərəncamla bağlı "Yeni Müsavat"a danışan "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev bildirib ki, sərəncamla Cinayət Məcəlləsində 237-ci maddəyə dəyişiklik edilib:**

"Bu maddə əvvəlki redaksiyada belə idi ki, qanunsuz olaraq tərkibində narkotik maddə olan bitkiləri əkmək, yetişdirmək, onların hissələrini toplamaq və kultivasiya etmək üçün cinayət məsuliyyəti nəzərdə tutulmuşdu. Buna görə 200 manatdan 1000 manata qədər cərimə və 3 ilədək fiziki azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulmuşdu. İndiki dəyişiklikdə isə bir qədər fərqli dispozisiya nəzərdə tutulur. Burada qeyd olunur ki, qanunsuz olaraq tərkibində narkotik maddələri xeyli miqdarda əkmək, yetişdirmək, toplamaq və kultivasiya etmək üçün cinayət məsuliyyəti nəzərdə tutulur. Əvvəl "xeyli miqdarda" ifadəsi yox idi. Əslində indiki dəyişiklik qanunvercilikdə maddənin dispozisiyasını dəqiqləşdirməyə xidmət edir".

**Ə. Nuriyev bildirib ki, əvvəl "xeyli miqdarda" ifadəsi olmadığı üçün nə qədər almasından asılı olmayaraq, dərhal şəxsi 237-ci maddəyə görə cinayət məsuliyyətinə cəlb edirdilər:** "Dəyişiklik edilən qanuna görə, Azərbaycanda bitən, lakin kultivasiyası qadağan olunmuş tərkibində narkotik maddələr olan bitkilər: tiryək xaşxaşı, yağlı xaşxaşın digər növlərinin 2-10 ədədi xeyli miqdar, 11 ədəd isə külli miqdarın aşağı həddi hesab ediləcək. Çətənə növlü bitkilərin 3-15 ədədi xeyli miqdar, 16 ədəd isə külli miqdarın aşağı həddi kimi qəbul edilir.

Bundan başqa, yetişdirmək məqsədilə qanunsuz becərilməsi təşkil edilmiş, çoxillik xaşxaşın və yabanı bitmiş çətənənin kol-koslarının 3-50 ədədi xeyli miqdar, 51 ədədi isə külli miqdarın aşağı həddi hesab ediləcək. İqlim şəraitinə görə bitməyən və kultivasiyası qadağan olunan bitkilər: kokain kolunun 1 ədədi xeyli miqdar, 2 ədədi külli miqdarın aşağı həddi, katın 2 ədədi xeyli miqdar, 3 ədədi isə külli miqdarın aşağı həddi kimi qəbul ediləcək. Yəni burada "xeyli miqdar" həddi dəqiq olaraq göstərildi. "Xeyli miqdar" göstəricisindən aşağı olduqda isə şəxs, İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, məsuliyyətə cəlb olunacaq. Yəni əvvəllər olduğu kimi, şəxs bütün hallarda cinayət məsuliyyətinə cəlb olunmayacaq".

**Əliməmməd Nuriyev bildirib ki, burada əsas məqam ondan ibarətdir ki, söhbət yalnız kultivasiya edilmiş narkotik maddələrdən gedir:** "Narkotik maddədən istifadəyə görə cinayət məsuliyyəti başqadır. Burada isə qanunsuz kultivasiya edilən, tərkibində narkotik maddə olan bitki yetişdirməkdən söhbət gedir. Qeyd etdiyimiz digər hal da öyrənilir və hansı hallarda narkotik maddələrdən istifadə etməyə görə cinayət məsuliyyətinə cəlb edilmə məsələsi araşdırılır. Bunun da hədləri müəyyənləşdiriləcək. Ümumiyyətlə, artıq narkomana xəstə kimi baxılmaq məsələsi var. Biri var ki, narkotik maddənin dövriyyəsini həyata keçirən şəxslər, bir də var ki, bu maddədən özü istifadə edənlər. Bu gün qanunvericiliyə görə, şəxs üzərində narkotik maddə gəzdirirsə, buna görə də cinayət məsuliyyəti nəzərdə tutulub. Gələcəkdə əsas islahat ona yönələcək ki, istifadə ilə bağlı məsələdə cinayət məsuliyyətinə cəlbetmə halları aradan qalxsın. Bununla bağlı hazırda müzakirələr gedir. Konkret olaraq söhbət satış məqsədi olmadan qanunsuz olaraq narkotik və psixotrop maddələrin əldə edilməsi və saxlanılmasından gedir. İndi buna görə cinayət məsuliyyəti var. Hələ ki qanunvercilikdə bu məsələ ilə bağlı dəyişiklik yoxdur".

❑ Əli RAİS

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Ölkədə qaz probleminin səbəbi nədir?

### Ekspertlər bildirirlər ki, hökumətin beynəlxalq öhdəlikləri daxilə normal qaz verilməsini əngəlləyir...

**Ölkənin, xüsusən də paytaxt Bakının qazla təminatında problem yaranıb. Günlərdir ki, paytaxtın ayrı-ayrı rayonlarında qazın verilməsində gün boyu fasilələr yaranıb. Əksər ekspertlər bildirirlər ki, ölkənin qazsız qalması xaricə daha çox qaz vermək səbəbindəndir.**

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində qaz hasilatında keçən ilin ortalarında azalma müşahidə olunurdu: "Amma ilin sonuna yaxın vəziyyət o qədər də acınacaqlı deyildi. Hasilatda o qədər də azalma müşahidə olunmadı. Neft hasilatında 4 faizlik azalma müşahidə olunsa da, qaz hasilatında ciddi azalma olmadı. Bu il də əksinə, artım gözlənilir. İki ciddi məsələ var. Birincisi, idarəetmənin bərbad olmasıdır ki, vaxtında qarşısı alına bilməyən problemlər vətəndaşın güzəranına və gündəlik qazla təminatına yansıyır. Bu, texniki problemlər də ola bilər, bu sistemdəki idarəetmə ilə bağlı da ola bilər. Qışa və soyuq havalara öncədən hazırlıqlı olmamaqla bağlı problemlər də ola bilər. Bu, hər il baş verən problemlərdir. Amma keçən il qaz bazarında maraqlı hadisələr də oldu. Azərbaycan Gürcüstanla ciddi danışıqlar aparırdı. Gürcüstan alternativ mənbələrdən qaz almaq istəyirdi ki, öz ehtiyaclarını ödəsin. Çünki təqribən 500 milyon kubmetrlik əlavə ehtiyac yaranmışdı. Qazla işləyən iki böyük elektrik stansiyası, tikilib istifadəyə verilmişdi. Bunlara əlavə qaz lazım idi. Onlar da Rusiya ilə, İranla qazla bağlı danışıqlar aparırdı. Azərbaycan danışıqlarda öhdəlik götürdü ki, verdiyi qazın həcmini daha da artıracaq. Doğrudan da Gürcüstana və Türkiyəyə keçən il Azərbaycan daha çox qaz satmağa başladı. Ola bilər ki, son zamanlar baş verən proseslərin bir qismi də bununla bağlıdr. Həm Gürcüstanla, həm Türkiyə ilə bağlı yeni öhdəliklərimiz var. Azərbaycan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə borcludur. Yerinə yetirərkən bu öhdəliklərin bir qismi daxili tələbat hesabına ödənilir. Yəni iki əsas məsələ- bir idarəetmənin bərbad olması, hazırlıqların normal aparılmaması, bir də öhdəliklərin artması Azərbaycanda son zamanlar vətəndaşlara verilən qazın miqdarının və keyfiyyətinin aşağı düşməsinə səbəb olub".

Qeyd edək ki, günlərdir ki, bir sıra bölgələrdə təbii qazın verilməsində problemlər var. Xüsusən Bakı ətrafında, Abşeronda da problem ciddidir. Ekspertlərin fikrincə, qazın verilməsində məhdudiyyətlərin olmasının bir neçə səbəbi var. Texniki səbəblə bərabər, görülən işin keyfiyyət məsələsi də var. Həm borularla bağlı problemlər olur, təmir olunmağa ehtiyac yaranır. Həmçinin Azərbaycan hökuməti öhdəliklər götürüb, xarici dövlətlər qarşısında qaz öhdəliklərimiz var. 500 milyon kubmetr qazın hasil olması öhdəliyi var, Türkiyə ilə müqavilələr var. Bu müqavilələri, öhdəlikləri yerinə yetirmək əlavə xərc istəyir. Bildirilir ki, hasilatın azalması fonunda öhdəliklərin artması Azərbaycanı yerli istehsalçılarla bağlı qaz verilişinə müdaxilə etməyə məcbur edir. Azərbaycan öhdəliklərini yerinə yetirmək üçün daxili istehlaka müəyyən dərəcədə qənaət etmək istəyir, bunu qarşısına məqsəd qoyub.

❑ AMİN

# Narkotik maddələrlə bağlı düzəliş nəyi dəyişəcək?





**20 İL ÖZƏL TİBBİ SAHƏDƏ TƏCRÜBƏ!**

**Xəstəlikdən əzab çəkən insanlara**
**Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, DOKTOR VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.

---

1. *Diaqnozu bilinməyən ağır hallar;*
2. *Xərçəngə şübhəli olan prostat düyünlü adenoması, prostatitlər;*
3. *Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;*
4. *Toy gecəsi uğursuzluqları və vaxtdan tez toxum ifrazat;*
5. *Sidikdə və spermada qan;*
6. *Spermanın azalması, itməsi;*
7. *Kişi cinsi orqanın birdən əyilməsi, balacalması;*
8. *Oğlan uşaqlarda cinsi orqanların (penisin və xəyaların) inkişafsızlığı;*
9. *Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;*
10. *Yumru və hərtərəfli saçların tökülməsi;*
11. *Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;*
12. *Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;*
13. *Psixo-nevroloq gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.*

---

D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

Yeni MÜSAVAT
N 40 (6654) 22 fevral 2017

# Novruzda bizi nevroz edən ənənələr - papaq atdı, Kosa, Keçəl...

## Atəş Əhmədli: "Bu personajların təqdimatı səhvdir"

**Qarşıdan Novruz bayramı gəlir. Bu bayram Azərbaycanda xüsusi təmtəraqla qeyd edilir. Bayramın, səməni göyərtmək, yumurta boyamaq, süfrəyə "s" hərfi ilə başlayan 7 nemətin qoyulması, papaq atdı kimi adətləri, həmçinin Kosa və Keçəl kimi məşhur personajları var. Bu adətlər illərin sınağından keçərək bu günümüzə qədər gəlib çatıb.**



*Ancaq bir sıra alimlər, mütəxəssislər papaq atdı adətinə, Kosa, Keçəl personajlarına və çərşənbələrə verilən adlara qarşı çıxır. Bunun səbəblərini, Novruz adət-ənənələrinin personajlarının hansı mənaları kəsb etdiyini öyrənmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun Mərasim folkloru şöbəsinin böyük elmi işçisi, fəlsəfə doktoru Atəş Əhmədli ilə söhbətləşdik.*

***- Son bir neçə ildə Kosa və Keçəl personajları bir sıra şəxslərdə qıcıq doğurur. Hətta onu Novruzun "bomj"ları adlandıranlar da var. Bu nə ilə əlaqəlidir?***

- Məsələ bu personajların mahiyyətində, prinsiplərində deyil, təqdimatdadır. Bu personajların təqdimatı səhvdir. Bu atributlara olan etirazların səbəbi onların üzünə pomada çəkilməsi, qırmızı rəngdə boyanması, kloun şəklinə salınmasına görədir. Düzgün təqdimat xalq tərəfindən heç vaxt etirazla qarşılanmayıb. Məsələn, bizim "Yeddi oğul istərəm", "Dəli Kür" filmimizdə Kosa ilə Keçəl çox gözəl klassik formada təqdim olunub. Hələ sovet dövründə, qadağaların olduğu bir dövrdə görün o obrazlar necə gözəl təqdim olunub. Kosa ilə Keçəlin cırıq paltarda olub pay alması məsələsinə gəlincə isə əslində Kosanın pay almasını Santa Klausun pay verməsi məsələsinə bağlayırlar. Yenə də deyim ki, bunun mifoloji kökü, ritual mahiyyəti var. Məsələn, Türkiyədə - Diyarbəkirdə deyirlər ki, Kosa gəlib bu qapıdan pay almasa, həmin evin o il ruzi-bərəkəti olmaz. Kosa qışın son ümididir. Burada Kosa qış kimi ölür, yaz kimi dirilir. Yəni "iki canlıyam" deyəndə həm qışı, həm də yazı təmsil edir. Bu da çox böyük mədəniyyət, teatr hadisəsidir. Qroteks obrazlılığın tipidir. Kosa məzhəkə qəhrəmanının, qroteks obrazlılığının mahiyyətidir. Kosanın papağı kəllə qənd kağızındandır. Kosanın ağ libası olub. Buna uzun ağ köynək də deyirlər. Onun altından qarnına yastıq bağlayardı. Belinə kiçik zınqırovlar asardı. Qurşağına isə çömçə taxardı. Çömçə də onun acgözlülüyünə işarə edir. Kosanın qurşağından da bir neçə boş torba asılardı. Bütün bunlar o obrazın mükəmməlliyindən xəbər verir. Ona görə də onu cırıq paltarda, lazımsız bir şey kimi təqdim etmək düzgün deyil. Bu obrazlar qədim insanların həyata baxışı idi. Xalq bunu bədii şəkildə çox gözəl yaradıb. Bunlar dünya teatr sənətinin inciləridir. Hansı ki, biz bunu düzgün təqdim edib dünya səviyyəsinə qaldıra bilərik. Motiv hər bir qəhrəmanın yaradıcılıq mövqeyi kimi səciyyələnir. Orada verilən hər bir detal ayrı-ayrı motivlərdir. Kosa tipinin qroteks obrazlılığı xeyirsizlik, acgözlük motivinə əsaslanırdı. Əslində biz sovet dövründə bir çox məsələlərdən məhrum olduğumuz üçün bu, xalq dramı səviyyəsində qaldı.

***- Papaq atmaq məsələsini ona görə tənqid edirlər ki, deyirlər kişi papağını yerə atmaz, bu adət ləğv edilsin. Bu barədə nə deyə bilərsiniz?***

- Papaq çox qədim əsası olan bir ritualdır. Novruz bayramında papağın atılması bu gün uşaqlar üçün əyləncəyə çevrilib. Bu gün əyləncəyə çevrilən bu adət əvvəllər çox ciddi ritual əsası olan bir mədəniyyət hadisəsi idi. Ümumiyyətlə, Novruz adətlərinin kompleks şəkildə hərəsinin öz yeri var və onların heç biri təsadüfdən doğmayıb. Bilirsiniz ki, bayramda sosial paylaşma var. İnsanlar bir-birinin evinə gedir, pay aparırlar. Eyni zamanda ruhların, xüsusən də həmin ildə ölmüş insanların yada salınması mərasimi var. Biz qəbir üstünə gedirik, pay aparırıq. Məhz ölən şəxslərin payını yığmaq üçün də papaq atdı mərasimi keçirilib. Qədim dövrlərdə "kasa saldı" adı ilə icra olunan bu mərasim dünyasını dəyişmiş insanların ruhunun imitasiyası qismində icra olunan bir mərasimdir. Burada üzün gizlədilməsi var. Üzün gizlədilməsi də ruhun imitasiyası məsələsini birbaşa özündə daşıyır. Onlar papaq atdıya xüsusi geyimdə üzləri örtülü şəkildə gələr, kasanı sallayar və paylarını istəyərdilər. Həmin dövrdə pay qismində kasaya buğda, arpa və s. dənli bitkilər qoyardılar. Həmin o alınan pay da aparılıb əkin sahələrinə səpilərdi. Mifologiyada qədim insanlar hər şeyi həqiqi olduğu kimi dərk edirdilər. Şübhəsiz, bu gün papaq atdı mərasiminin estetik tərəfi var. Uşaqlar indi papaq atdını əyləncəyə çevrilib, bunun ritual əsası, mahiyyəti unudulub. Papaq atmanın müxtəlif üsulları olub. XIX əsrdə oğlanlar bellərinə qurşaq bağlayardılar. Bel qurşağını atardılar və buna da "qurşaq atdı" deyərdilər. Müəyyən dövrdən sonra isə bu şalla əvəz olundu. Şal deyəndə qadınların örtdüyü şal nəzərdə tutulmur. Kişilərin də belinə bağladığı şal vardı. Sonra bu torba atma ilə əvəzləndi. Yadımdadır ki, anam boyun torbası tikərdi. O torbanı boynumuza keçirib pay alardıq. Papaq atmaq tarixən olmayıb, sonradan yaranıb. 50-60-cı illərdə bu meydana gəlib. Bunun da səbəbləri var. Etnoqrafik mənzərə dəyişir, zaman keçdikcə geyim növləri sıradan çıxır. İndi qurşaq bağlayan, torba, xurcun da yoxdur. Azərbaycanın ən qədim papaq növü börkdür. Kişi başından börkü götürüb heç vaxt ayaq altına atmazdı. Sonra külah papağı olub, Koroğlu dastanında da bunun adı çəkilir. Daha sonra təşkülah, buxara papaq növləri meydana gəldi. Bu papaqları da kişilər heç vaxt ayaq altına atmayıblar. Son dövrlərdə bu əyləncə vasitəsinə çevrilib. Uşaqlar papaqları yerə atır. Amma bunu onlara izah etmək lazımdır. Bəzən böyüklər deyirlər ki, 3 manatlıq Çin papağıdır, uşaqdır, qoy atsın.



**"Uşağa başa salmaq lazımdır ki, papağı ayaq altına atmaq olmaz"**

Deyirəm, axı məsələ papağın ucuz olmasında deyil, onun mahiyyətindədir. Uşağa başa salmaq lazımdır ki, papağı ayaq altına atmaq olmaz.

***- Çərşənbələr nəyə əsasən adlandırılır və məhz 2-ci gün keçirilir? Bunun hansı anlamı var?***

- Türk mifologiyasına, əski inanca görə xalqımız hər günün bir sahibi olduğu anlamında onu mənalandırırdılar. Bu, bir çox xalqlarda var. Qaqauzlarda, Anadolu türklərində də var. Məsələn, onlar çərşənbə gününə çərşənbə qarı deyirlər. Bundan başqa, "cümə qarısı", "azar ana" var. Günlərin belə adlandırılması dünyanın qoca olması anlamına gələn məsələdir. Bu, qədim türk mifologiyasında illərə də öz təsirini göstərib. Yunan və Roma mifologiyasında çərşənbə müharibə allahı Aresin adı ilə bağlanılır. Yəni bu, tipologiyasına görə geniş yayılmış hadisədir. Çərşənbələrin ünsürlərlə bağlanmasına etiraz edən alimlər var. Məsələn, bir çox alimlərimiz deyir ki, bu, yalançı, xəbərçi, ölü çərşənbədir. Nəyə görə biz bunu dörd ünsürlə bağlayırıq, niyə bu dörd ünsür ortaya atılıb? Hətta guya 90-cı illərdə bunun süni şəkildə yaradılması haqqında həmkarlarımızın müxtəlif fikirləri də var. Amma düşünürəm ki, məsələyə bu şəkildə yanaşmaq olmaz. Bilirsiniz ki, Novruz adətlərinin dirçəlməsi üçün bizim xalqımız çox böyük qurbanlar verib. 30-cu illərdə nəinki insanlarımız, hətta Novruz da repressiya olunub. 70-80-ci illərdə az da olsa, bu qadağalar götürüldü. Müstəqillik qazandıqdan sonra isə bu məsələlər daha dərindən öyrənilməyə başlandı və bu bayram əhatəli şəkildə çərşənbələri ilə birlikdə keçirildi. Adətlərin dirçəlməsi uğrunda nə qədər oğlanlarımız özlərini qurban verdi. Buna Şıxəli Qurbanovu misal gətirərdim. Bu gün Xıdır Nəbi bayramı keçirilir. Xıdır insanlığa od, ruzi-bərəkət gətirən bir obraz kimi təqdim olunur. Folklorumuzda, mifologiyamızda Xıdır peyğəmbər qismində də deyilir. Məsələn, bizdə fevral ayının ortalarında, qışın ən sərt vaxtında keçirilən bu bayram Türkiyədə 6 mayda qeyd olunur. Bu, parçalanmış mədəniyyətin ayrı-ayrı qəlpələridir. Onlar araşdırılmalı, bir-biri ilə əlaqəsi tapılmalı və bərpa olunmalıdır. İndi bu çərşənbələrə hücumlar başlayıb ki, niyə ünsürlərlə bağlanılır. Qərb bölgəsində buna yalançı, xəbərçi, ölü çərşənbə deyirlər. Amma mən sizə bir fakt deyim ki, 1928-ci ildə Əhməd Paşabəyli adlı bir tədqiqatçı Azərbaycanı öyrənmə jurnalında məqaləsində yazır ki, Şirvan bölgəsində, Şəki, Ağdaş, Qəbələ, Göyçay ərazisində insanlar hər həftə bir cismin oyanmasını bayram kimi qeyd edərdi. Çərşənbələrin cisimlərlə bağlı olması bu ərazilərə məxsusdur, İranla bağlı olması məqaləsində yazmır. İranda ilin axır çərşənbəsinə çərşənbeyi surxi, yəni qırmızı çərşənbə deyilir. O çərşənbə sıralanmasını bu cür verir, hava, su, torpaq, ağac. Ağac əski inanca görə müqəddəs idi və yazın bəlgəsi idi. Bu sıralanmada od yoxdur. Əslinə qalsa, od bu çərşənbələrin aparıcı elementidir. O, yazısında göstərir ki, hər çərşənbədə od qalanardı. Bəzi alimlər bunun 90-cı ildə ortaya atıldığını deyir. Onlar gözəl bayramımıza şübhə ilə yanaşmamalıdır. Qars vilayətində fevralın 20-də, yeni kiçik çillə çıxanda cəmrə, yəni od, ataş, isti günəş havaya baxır. Deməli, bu hava çərşənbəsi oldu. Bu bizim Şirvan bölgəsi ilə düz gəldi. Fevralın 27-də cəmrə suya baxır, yeni buzlar əriyir. Bu su çərşənbəsi oldu. Martın 6-da cəmrə torpağa baxır. 3-cüsü isə od çərşənbəsidir. Bu türk mədəniyyətidir. Təəssüflər olsun ki, bəzi alimlərimiz bunu görə bilmir. Novruz da dünyanın, insanın yaranması ilə bağlı bayramdır. Bu 4 ünsür olmasa insanlıq, dünya yoxdur deməkdir. Təsəvvür edin ki, televiziyada deyilir ki, yalançı, xəbərçi çərşənbədir. Lap bunu birtəhər qəbul etmək olar. Amma desən ki, ölü çərşənbədir, insanlara bu pis təsir edər. Xəbərçi çərşənbə deyirlərsə, bu bölgəvidir. Buna hörmətlə yanaşırıq. Amma bunu dünyaya bu şəkildə çıxarmağımız düzgün deyil. Bu 4 ünsürdə əslində xalqımızın fəlsəfəsi nümayiş olunur.

***- Yaz fəsli ölkəmizə nə vaxt qədəm qoyacaq?***

- Martın 20-də səhər saatlarında 10:28:07-də günəş 23 dərəcə və 27 dəqiqə deyilən bir nöqtəyə gələcək. Buna yaz bərabərliyi deyilir. Yəni şimal bölgəsində yaşayan xalqlara yaz fəsli gələcək. Bu da yeni ilin gəlişi kimi qeyd olunacaq.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 1 (6615) 6 yanvar 2017

# Qadınlar ərindən nəyi gizlədir?

Psixoloqlar müəyyənləşdirib ki, qadınların öz ərindən, sevgilisindən gizlətdikləri bir çox şeylər var. Bunlardan biri onların mağazadan, bazardan, butikdən və s. aldığı hər şeyin qiymətini və miqdarını olduğundan az deməsidir. Onlar bunu ərlərinin pula görə deyinməməsi üçün edirlər. Bundan başqa, qadınlar çox vaxt ərlərinin onları qısqanması üçün kiçik yalanlar deyirlər. Zərif cinsin nümayəndələri ərlərinin boş-boş işlərlə məşğul olduğunun fərqində olsalar belə, bunu onlara demir, ondan narazı olduqlarını dilə gətirmirlər. Qadınların ərlərindən gizlətdiyi daha bir məqam isə yaraşıqlı aktyorlara olan heyranlıqlarıdır. Onlar hesab edirlər ki, bunu desələr, ərlərinin qəlbinə dəymiş olacaqlar.



## “McDonalds”da yeməyin içindən diş çıxdı

Yaponiyadakı “McDonalds” restoranındakı müştərilərdən biri kartof-fri porsiyasının içindən insan dişi tapıb. Hadisə Osaka əyalətində baş verib. Şəbəkənin nümayəndələri baş vermiş hadisəyə görə üzrxahlıqlarını bildirsələr də, yeməyin içinə diş düşməsi versiyasını ağlabatan hesab etməyiblər. Onlar söyləyiblər ki, bugünlərdə işçilərdən heç birinin dişinin düşməsi hadisəsi baş verməyib. Amma bu, sözügedən şəbəkə ilə bağlı baş vermiş ilk belə hal deyil. Bundan öncə də Yaponiyanın Aomori, Tokio şəhərlərində də analoji hal baş vermişdi.

## Yaponlar ölmədən qəbirə girirlər

Ən əcaib xidmətlər yaponlardan çıxır. Bunlardan ən sonuncusu The End of Life - həyatın sonu adlanır. Bu xidmət sayəsində yaponlar ölümə, daha dəqiq desək, dəfn mərasiminə hazırlaşırlar. Təbii ki, yaponlar özlərinin bər-bəzəkli qəbiristanlıqlarında əbədi yuxuya getməyə tələsmirlər. Amma dəfn mərasiminin bütün kədərli qayğıları mərhum yaxınlarının boynuna düşməsin deyə firmalardan biri ilginc xidmət təklif edib. Hər bir şəxs özünün dəfn mərasiminə hazırlaşa bilir. Daha dəqiq desək, bu prosesə öncədən hazırlaşmaq mümkündür. Dəfn mərasiminin bütün atributlarını öncədən hazırlamaq olar: qəbir, məzar və sair. Yaponlara “tunelə girmədən öncə” nələr etmək lazım gəldiyini seminarda öyrədirlər. Bunu isə ölkənin bu sahə üzrə ixtisaslaşmış kampaniyası olan Aeon Co həyata keçirir.

# Ölmüş gənc dəfn mərasimində ayıldı

Hindistanın Darvad adlı kənd sakini öz dəfn mərasiminə gedən yolda ayılıb. Bir ay öncə 17 yaşlı Kumar Marevadanı küçə itlərindən biri dişləyib, ondan sonra onun temperaturu yüksəlib. Gəncin durumu ciddi şəkildə pisləşəndə yaxınları onu xəstəxanaya aparıblar, daha sonra isə xüsusi aparata qoşulub. Həkimlər Kumarın yaxınlarına izah ediblər ki, infeksiya bütün bədəni üzrə yayılıb və o, yaşamayacaq. Bununla belə, yaxınları onu bahalı müalicə etdirmək üçün pul tapmayıblar və buna görə onu evə aparıblar. Daha sonra onda heç bir nəfəs alma və hərəkət əlamətləri özünü göstərməyib. Buna görə gənc üçün milli adət-ənənələrə uyğun olaraq dəfn mərasimi təşkil ediblər. Amma mərasim başlayandan iki saat sonra Kumar gözlərini açıb, əllərini tərpədib. Gənc tezliklə ağır vəziyyətdə xəstəxanaya çatdırılıb, aparata bağlanıb. Həkimlər bildirir ki, onun diaqnozu meninqoensefalitdir və it dişləməsi nəticəsində yaranır.





## Hoteldə uşaq doğduğu üçün işdən çıxarıldı

ABŞ-ın Nyu-York şəhərindəki ən məşhur hotellərdən birinə rəhbərlik edən Tara Tan adlı qadının başına ilginc hadisə gəlib. Belə ki, doğuş sancıları başlayan kimi xəstəxanaya getmək istəyən, amma bunu çatdırmayacağını anlayan qadın elə hotel otağında da övladını dünyaya gətirib. “Şirkət mədəniyyətinə” uyğun olmadığı üçün işdən çıxarılan qadın isə boş dayanmayıb. O da hoteldən məhkəməyə şikayət verərək, 10 milyon dollar tələb edib.

“Nyu-York Post” qəzetinə müsahibə verən Tan deyib ki, doğuşun gerçəkləşməsinə həyat yoldaşı kömək edib. O, həkimlə telefonla danışaraq doğuşun baş tutmasını təmin edib. 40 yaşındakı Tanın sözlərinə görə, hotel rəhbərliyi bu yaşlarda olan və analıq arzusuna düşən qadınlara müsbət yanaşmır, onları hər cür bəhanə ilə işdən çıxarır.




**QOÇ** - Şəxsi büdcənizdə, eləcə də qarşılıqlı münasibətlər zəminində müsbət dönüş yaratmaq üçün kifayət qədər şanslarınız var. Atacağınız hər bir addımı dönə-dönə ölçüb-biçin.

**BUĞA** - Ümumən darıxdırıcı təqvim olsa da, hisslərinizi cilovlamağı bacarmalısınız. Çünki qarşıda sizi böyük işlər gözləyir. Nahardan sonrakı ərəfəni bütünlüklə məhəbbətə həsr edin.

**ƏKİZLƏR** - Vaxt tapıb bir qədər Axirət haqqında düşünün. Son yolumuz Ora olduğu üçün savablarınızı artırmağa, hamı ilə mehriban davranmağa çalışın. Hakim Allahdır - məhz bunu anlamağa çalışın.

**XƏRÇƏNG** - Ulduzlar boş-boşuna oturmağınızı məsləhət görmür. Ən azı ona görə ki, bu təqvimin şanslarını görüb aktivliyinizi birə-beş artırmalısınız. Nahardan sonra müqəddəs yerlərə gedin.

**ŞİR** - Yeni görüş və məsləhətləşmələrdə iştirakınız gözlənilir. Qarşınızı kəsən maneələr yavaş-yavaş səngiməyə başlayacaq. Təcrübəli adamlardan yararlanın. Bəxtinizdə pul da var.

**QIZ** - Ümumi götürdükdə uğurlu təqvim hesab etmək olar. Əvvəla, əksər bürclərlə müqayisədə büdcə artımı yalnız sizdə gözlənilir. Bundan başqa yeni təkliflər alacağınız da mümkündür.

**TƏRƏZİ** - Qərarlarınızda qəti və ədalətli olsanız, heç bir xoşagəlməzliyin şahidi olmayacaqsınız. Çalışın ki, bahalı əşyaların, o cümlədən daşınmaz əmlakın alqı-satqısında iştirak etməyəsiniz.

**ƏQRƏB** - Uzaq yola çıxmaq üçün gözəl vaxtdır. Hətta maddi durumunuz aşağı səviyyədə olsa da səfərdən imtina etməyin. Son vaxtlar sizə vəd verib reallaşdıra bilməyənlərə düşmən kimi baxmayın.

**OXATAN** - İşlərinizin çoxluğu fiziki cəhətdən yorğunluğunuza səbəb ola bilər. Lakin nəticənin uğurluluğunu nəzərə alıb usanmayın. Etibar etmədiyiniz adamların məsləhətlərinə əhəmiyyət verməyin.

**OĞLAQ** - Kifayət qədər düşərli vaxtdır. Göy qübbəsi gün ərzində nəzərdə tutduğunuz planların reallaşmasına təkan verəcək. Sadəcə, şəraitə uyğun addım atmalısınız. Bəxtinizə inanın.

**SUTÖKƏN** - Təxminən saat 15-ə qədər bütün mühüm işlərinizi təxirə salın. Əks təqdirdə uğursuz cəhdlər silsiləsinə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə maraqlı hadisə və insanlarla rastlaşacaqsınız.

**BALIQLAR** - Yeni əlaqələr üçün yaxşı vaxtdır. Sadəcə, qarşı tərəfə güzəştə getməyiniz vacibdir. Nahardan sonra fəaliyyət istiqamətində sevindirici olaylar da gözlənilir. Reallığı nəzərə alın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Soyuqda xəstələnmək istəmirsinizsə, burnunuzu şərflə bağlayın



İsveçrə alimləri sübut ediblər ki, şaxtalı havada burnu şərflə bağlamaq soyuqdəymə riskini azaldır. Bu barədə lenta.ru saytı “The Daily Telegraph”a istinadən xəbər verir. Araşdırmaçılar bildirir ki, hər 5 adamdan biri rinovirus daşıyıcısıdır ki, bu da insanın immun sisteminə olduqca ciddi təsir göstərir. Bununla yanaşı, alimlər müəyyənləşdiriblər ki, bədənin temperaturu immunitetə daha çox təsir edir, nəinki virusun özü. Bu səbəbdən də orqanizmi çökdürən soyuq havanın burun dəliklərindən içəri girməsinin qarşısını almaq üçün onu şərflə bağlamaq vacib şərtdir. Nəşr xatırladır ki, daha öncə bir qrup həkim insanların xəstələnməməsi üçün onların nazik geyinməsini məsləhət görürdü.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100